Əhli-beyt və səhabələr adına xeyriyyə fondu
İslami mariflƏndirmə mövzuları silsiləsindən (9)

# Əbədi vəsiyyət

## Əhli-beyt imamlarına görə həqiqi tövhid



**Muhəmməd Salim əl-Xıdır**

Tərcümə edən: Əbu Zəkəriyyə

**Əhli-beyt və səhabələr adına xeyriyyə fondu**
**İslami mariflƏndirmə mövzuları silsiləsindən (9)**

# Əbədi vəsiyyət

**Muhəmməd Salim əl-Xıdır**

**Tərcümə edən: Əbu Zəkəriyyə**



## Qədimi əlyazmanın surəti:

Qüdrətli və Əzəmətli Allahın əl-Ənkəbut surəsinin sonundakı sözü “69-cu ayənin bir hisəsi”:

﴿. . .  جَٰهَدُواْ فِينَا لَنَهۡدِيَنَّهُمۡ سُبُلَنَاۚ وَإِنَّ ٱللَّهَ لَمَعَ ٱلۡمُحۡسِنِينَ﴾

“Uğrumuzda cihad edənləri mütləq Öz yolumuza yönəldəcəyik. Şübhəsiz ki, Allah saleh əməl sahibləriləndir.”

Sonra “Bismilləh” kəlməsi, sonra isə Qüdrətli və Əzəmətli Allahın ər-Rum surəsinin əvvəlindəki sözü “Birinci ayə və ikinci ayənin ilk kəlməsi”:

﴿الٓمٓ ۝ غُلِبَتِ ٱلرُّومُ . .﴾

“Əlif. Ləm. Mim. Məğlub edildilər...”

# Mündəricat

Müqəddimə ........ 5
**"Həqiqətən, Allaha şərik qoşmaq böyük zülmdür!"** ........ 7
Dua ibadətdir ........ 11
Bunu Allahın peyğəmbərləri demişdir, bəs sən nə deyirsən? ..... 14
Əhli-beyt bunu özləri barəsində açıqcasına demişdir ........ 17
Təvəssül bir şeydir, məxluqatdan kömək diləyib onlara dua etmək isə başqa bir şeydir ........ 19
Bəndə ilə Rəbbi arasında vasitə yoxdur ........ 21
**"Ey iman gətirənlər! ... kafirlər kimi olmayın!"** ........ 26
Adlar fərqli olsa da üslublar bir-birinə bənzəyir ........ 33
Əhli-beyt onları sevən kimsələrə məşru olan təvəssülü öyrədərdi ........ 35
Əhli-beyt Allahdan kömək diləyirdi, bəs sən kimdən kömək diləyirsən? ........ 38
Uca Allah Fironu hansı səbəbdən suya qərq etmişdir? ........ 45
Fatimeyi Zəhradan və imamlardan kömək dilənilir, yoxsa onları Yaradandan? ........ 47
Məgər Allah Öz qulunu qane etmirmi? ........ 54
Çağırışlar bizə kifayət edər ........ 59
Məxəzlər ........ 60

# Müqəddimə

Bütün həmdlər mülkü və səltənəti idarə edən, izzət və qüdrətdə tək olan, göyləri dirəksiz yüksəldən və onların içində olan bəndələrinin ruzilərini müəyyən edən Allaha məxsusdur. Allah *sağlam* qəlb və ağıl sahiblərinin gözlərini vasitələrə və səbəblərə deyil, o səbəbləri yaradana diqqət yetirməyə yönəltdi, onların mədsədlərini Özündən qeyrisinə tərəf yönəlməkdən, habelə Özündən başqa İdarə edənə etimad etməkdən azad etdi və beləliklə də onlar yalnız Ona ibadət etdilər. Bilin ki, O, Vahid, Tək olan, *heç kəsə* möhtac olmayan İlahdır. Məxluqatın hamısı bir-biriə tay olan qullardır. Odur ki, onlardan ruzi diləmək olmaz.

Batil fikirləri yox edən, doğru yolu göstərən Muhəmmədə və onun ailəsinə *Allahın* xeyir duası və çoxlu salamı olsun.

Sonrasına gəlincə...

"Aləmlərin Rəbbinin tək ilah olduğunu qəbul etmək" barədə olan bu maraqlı risaləni Peyğəmbərin ﷺ əhli-beytinin ən hörmətli şəxslərindən biri ilə qarşılaşdıqdan sonra yazdım. Biz əhli-beyti uca tutur və onlara olan sevgi vasitəsilə Uca Allaha yaxınlaşırıq.

Bütün ümmətə fayda vermək üçün Quran və Sünnədən olan dəlillərlə, habelə əhli-beyt imamlarının kəlamları ilə bəzənmiş "Tövhid" barədə bir risalə yazmağı mənə tövsiyə edən bu adama təşəkkürümü bildirirəm.

Həm elmdə, həm də təqvada məndən üstün olan kimsələrin önünə keçməkdən həya edərək onun istəyini yerinə yetirdim. Hərçənd, düşünürdüm ki, bu risaləni yazmaqdan boyun qaçırmaq "elmi gizlətmək" sayılır, lakin sonra gördüm ki, Peyğəmbərin ﷺ əhli-beytindən varid olan rəvayətlər günümüzdə özlərini əhli-beytə mənsub edənlərin bəzilərinin iddialarına müxalifdir.

İndiki zamanda bir-birinin ardından o qədər fitnələr yayılıb ki, hətta sağlam qəlb sahibi belə gördüyünü və eşitdiyini inkar edir. Uca Allahdan istəyirik ki, bizi Öz dini ilə sınağa çəkməsin.

Şəhadət kəlməsinin, yəni “Allahdan başqa ibadətə layiq məbudun olmadığına və Muhəmmədin ﷺ Allahın rəsulu olduğuna” şahidlik etməyin *həqiqi* mənasını təbliğ etməkdən boyun qaçırmaqdan daha böyük hansı fitnə ola bilər ki? Eləcə də bilərəkdən *insanları* şəhadət kəlməsindən sapdıran neçə-neçə fitnəkarlar və təqlid edərək bu fitnəyə məruz qalan neçə-neçə insanlar vardır.

Elə isə, mənim öhdəmə düşən budur ki, sözümü insanlara çatdırmaq üçün Uca Allahdan yardım, müvəffəqiyyət və *etdiyim əməlin* əvəzini diləyərək niyyətimi düzəldim və məqsədimi gücləndirim. Əgər istədiyimə müvəffəq olsam, o halda neməti sayəsində yaxşı işlər tamamlanan Allaha həmd olsun! Yox, əgər istəyimə müvəffəq olmasam, Uca Allahdan istəyirəm ki, məni savabdan məhrum etməsin və mənim bu əməlimi Şərəfli Üzü xatirinə edilən və heç bir riya qarışığı olmayan ixlaslı əməllərdən etsin.

Möhtərəm oxucu bilməlidir ki, insanları razı salmaq qeyri-mümkündür. Odur ki, kim Allahı qəzəbləndirərək insanları razı salarsa, Allah onu insanlara həvalə edər, kim də insanları qəzəbləndirərək Allahı razı salarsa, Allah ondan razı qalar və *sonda* insanları da ondan razı edər.

Son sözümüz budur ki, həmd aləmlərin Rəbbi Allaha məxsusdur.

**Müəllif.**

## “Həqiqətən, Allaha şərik qoşmaq böyük zülmdür!” ﴿إِنَّ ٱلشِّرْكَ لَظُلْمٌ عَظِيمٌ﴾

Uca Allah şirkin ən böyük günah olduğunu bildirmiş və Qurani Kərimdə belə buyurmuşdur:

﴿إِنَّهُۥ مَن يُشْرِكْ بِٱللَّهِ فَقَدْ حَرَّمَ ٱللَّهُ عَلَيْهِ ٱلْجَنَّةَ وَمَأْوَىٰهُ ٱلنَّارُ وَمَا لِلظَّٰلِمِينَ مِنْ أَنصَارٍ﴾

**“Kim Allaha şərik qoşarsa, heç şübhəsiz, Allah Cənnəti ona haram edər. Onun gedəcəyi yer atəşdir. Zalımların heç bir yardımçısı yoxdur.”[1]**

Öz Kitabının başqa bir ayəsində isə belə buyurmuşdur:

﴿إِنَّ ٱللَّهَ لَا يَغْفِرُ أَن يُشْرَكَ بِهِۦ وَيَغْفِرُ مَا دُونَ ذَٰلِكَ لِمَن يَشَآءُ﴾

**“Allah Özünə şərik qoşulmasını əsla bağışlamaz, bundan başqa** ***olan günahları*** **isə istədiyi kimsəyə bağışlayar.”[2]**

Uca Allah xəbər verir ki, şirkdən tövbə olunmayınca onu bağışlamır, bundan başqa *olan günahları* isə - əgər istəsə - tövbəsiz bağışlayır.[3]

İmam Əli رضي الله عنه bu ayəyə böyük önəm vermiş və onun barəsində belə demişdir: “Mənim üçün Quranda Qüdrətli və Əzəmətli Allahın **“Allah Özünə şərik qoşulmasını əsla bağışlamaz, bundan başqa** ***olan günahları*** **isə istədiyi kimsəyə bağışlayar.”** – sözündən daha sevimli ayə yoxdur.”[4]

Şirk çox təhlükəli olduğuna görə Uca Allah onu böyük zülm adlandırmış və demişdir: **“Həqiqətən, Allaha şərik qoşmaq böyük zülmdür!”[5]** Deməkkim *Allaha* şərik qoşarsa, özünə zülm etmiş və özünü təhlükəyə atmış olar. Bunun əksi olaraq, iman əhlini isə Uca Allah belə vəsf etmişdir: **“İman gətirdikdən sonra imanla-**

---

[1] əl-Maidə surəsi, 72
[2] ən-Nisa surəsi, 48
[3] Şeyx əl-Mufid, “əl-Məsail əs-Sərviyə”, səh. 101
[4] İbn Babaveyh əl-Qummi, “ət-Tovhid”, səh. 409
[5] Loğman surəsi, 13

**rına zülm qatışdırmayanları əmin-amanlıq gözləyir. Doğru yola yönəlmişlər də məhz onlardır."[1]**

*Allaha* şərik qoşanın adamın əməli puç olur və *o əməl* rədd olunur. Üstəlik, Uca Allah həmin adamdan nə bir sədəqə nə də bir fidyə qəbul edir. Necə ki, Qüdrətli və Əzəmətli Allah buyurur: **"Əgər *Ona* şərik qoşsaydılar, əlbəttə, etdikləri əməllər puç olardı."[2]**

Hətta Öz peyğəmbəri Muhəmmədə ﷺ xitabən *Uca Allah* belə buyurur: **"Sənə və səndən əvvəlkilərə belə vəhy olunmuşdur: "Əgər *Allaha* şərik qoşsan, əməlin puç olacaq və mütləq ziyana uğrayanlardan olacaqsan."[3]**

Əsl tövhidin mənasını izah etmək və insanları Allahdan qeyrisinə olunan ibadətlərdən uzaqlaşdırmaq etmək üçün Qüdrətli və Əzəmətli Allah müjdə verən və qorxudan elçilər göndərdi. Necə ki, Uca Allah buyurur: **"Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun"– *deyə*, elçi göndərdik."[4]**

Uca Allahın göndərdiyi hər bir elçi öz ummətinə olan dəvətini tək olan və heç bir şəriki olmayan Allaha ibadət etməyə çağırmaqla başlayırdı.

Budur, Nuh عليه السلام öz qövmünə belə deyir: **"Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa məbudunuz yoxdur. Mən sizə üz verəcək Böyük günün əzabından qorxuram."[5]**

Budur, Hud عليه السلام öz qövmünə belə deyir: **"Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa məbudunuz yoxdur. Yoxsa qorxmursunuz?"[6]**

---

[1] əl-Ənam surəsi, 82
[2] əl-Ənam surəsi, 88
[3] əz-Zumər surəsi, 65
[4] ən-Nəhl surəsi, 36
[5] əl-Əraf surəsi, 59
[6] əl-Əraf surəsi, 65

Budur Qüdrətli və Əzəmətli Rəbbi Muhəmmədə ﷺ əmr edərək belə buyurur: **"De: "Gəlin, Rəbbinizin sizə nələri haram etdiyini oxuyum". Ona heç nəyi şərik qoşmayın..."**[1]

Ona görə də Peyğəmbər ﷺ insanların arasında dolaşar və onları "Lə ilahə illəllah deyin ki, nicat tapasız" – deyə səsləyərdi. Əmisi Əbu Ləhəb isə onun arxasınca daş atar və səfeh-səheh sözlər deyərdi.[2]

Əgər diri qəlb sahibi zülmü inkar edir və onu pis şey sayırsa, habelə etdikləri günahın böyüklüyünə görə zalımlara qarşı düşmən münasibəti bəsləyir və onlara nifrət edirsə, onda əvvəldə qeyd etdiyimiz kimi ən böyük zülm Allaha şərik qoşmaqdır və Allah barəsində piss zəndə olub Ondan qeyrisinə bağlı olduğuna görə *Allaha şərik qoşan* müşrik Allah xatirinə nifrət olunmağa daha layiqdir.

Abdullah ibn Məsudun رضي الله عنه rəvayət etdiyi hədisdə deyilir ki, o Peyğəmbərdən ﷺ "Hansı günah ən böyük günahdır?" – deyə soruşduqda Peyğəmbər ﷺ demişdir: **"Allah səni yaratdığı halda (başqa birisini) Ona tay tutmağın!"**[3]

Elə buna görə də **şirkdən** qorunmaq, habelə müşriklərdən və onların etdikləri şirk əməllərdən uzaq durmaq ən əsas vacib əməllərdən sayılır.

Elə bu məqsədlə İbrahim عليه السلام müşriklərdən və onların Allahdan başqa ibadət etdiklərindən uzaq olduğunu elan etmişdir. **"O dedi: "Siz nəyə ibadət etdiyinizi görürsünüzmü – həm siz, həm də ulu**

---

[1] əl-Ənam surəsi, 151

[2] İmam Əhmədin "Müsnəd" əsəri, Qurtuba nəşri, 16066-cı hədis. Şeyx Şueyb əl-Arnavut bu hədisin "həsən liğeyrihi" olduğunu demiş, şeyx Albani isə "Səhih əs-Siyra ən-Nəbəviyyə" əsərində (səh. 143) onu səhih hesab etmişdir.

[3] "Mustədrək əl-Vəsail" 14/332; Bu hədisi həmçinin Buxari öz Səhihində,Təfsir kitabının **"...Siz də *bunu* bildiyiniz halda *heç kəsi* Allaha tay tutmayın"[3] ayəsi barədə deyilənlər"** adlı fəslində (4488-ci hədis) rəvayət etmişdir. Muslim isə öz Səhihində, İman kitabının **"(Allaha) şərik qoşmağın ən qəbih günah olması və ondan sonra (hansı) günahın ən böyük olmasının bəyan edilməsi"** adlı fəslində (86-cı hədis) rəvayət etmişdir.

**babalarınız? Aləmlərin Rəbbindən başqa, onların hamısı mənim düşmənimdir."**[1] O həmçinin əl-Ənam surəsində belə demişdir: **"Ey qövmüm! Həqiqətən, mən sizin *Allaha* şərik qoşduqlarınızdan uzağam!"**[2]

Budur, İbrahim ﷺ dini. O din ki, onun barəsində Uca Allah belə söyləmişdir: **"Səfehlik edən kəsdən başqa kim İbrahimin dinindən üz çevirər?!"**[3]

Uca Allah insanları *İbrahimin* dininin ardınca getməyə sövq etmiş və belə buyurmuşdur: **"İbrahim və onunla birlikdə olanlarda sizin üçün gözəl bir nümunə var. Onlar öz qövmünə dedilər: "Həqiqətən, biz sizdən və sizin Allahdan başqa tapındığınız şeylərdən uzağıq. Biz sizi inkar edirik. Siz bir olan Allaha iman gətirincəyə qədər bizimlə sizin aranızda daim ədavət və nifrət olacaq!"**[4]

---

[1] əş-Şuəra surəsi, 75-77
[2] əl-Ənam surəsi, 78
[3] əl-Bəqərə surəsi, 130
[4] əl-Mumtəhənə surəsi, 4

# Dua ibadətdir

Şübhəsiz ki, dua ibadətdir. Mömin olan kəs əllərini göyə qaldırıb Uca Allahdan həm dünya, həm də axirət xeyirini istədiyi zaman duanın həqiqətən ibadət olduğunu hiss edir.

Bu mühüm mənaya dair Quran və Sünnədən olan dəlillər, habelə, əhli-beytin ﷺ həmin mənanı təsdiqləyən kəlamları bir-birini gücləndirir. Yəni, bu dəlillər göstərir ki, dua ibadətdir və duanı Uca Allahdan qeyrisinə yönəltmək pak və müqəddəs olan Allahdan qeyrisini ilahiləşdirməkdir.

Rəvayət edilir ki, Nomən ibn Bəşir رضي الله عنه demişdir: "Mən Rəsulullahın ﷺ minbərdə ikən belə dediyini eşitmişəm: "Həqiqətən, dua ibadətdir". Sonra o bu ayəni oxudu: **"Rəbbiniz dedi: "Mənə dua edin, Mən də sizə cavab verim. Həqiqətən, Mənə ibadət etməyə təkəbbür göstərənlər Cəhənnəmə zəlil olaraq girəcəklər."**[1]

"əs-Sahiyfə əs-Səccadiyyə əl-Kamilə" adlı kitabda İmam Zeynulabidin Əli ibn Hüseynin söhbətlərində deyilir: (*Ey Rəbbim!* Sən belə buyurursan: **"O zaman Rəbbiniz *belə* bildirmişdi: "Əgər şükür etsəniz, sizə *olan nemətimi* artıraram, yox əgər nankorluq etsəniz, *bilin ki,* Mənim əzabım şiddətlidir."** Həmçinin belə buyurmusan: **"Mənə dua edin, Mən də sizə cavab verim. Həqiqətən, Mənə ibadət etməyə təkəbbür göstərənlər Cəhənnəmə zəlil olaraq girəcəklər."** Sən, həqiqətən də, Sənə dua etməyi ibadət, onu tərk etməyi isə təkəbbür göstərmək adlandırmısan. Habelə, duanı tərk edən kimsəyə Cəhənnəmə zəlil olaraq girməyi vəd etmisən. Odur ki, onlar Sənin mərhəmətin sayəsində Səni zikr etdilər, lütfün sayəsində Sənə şükr etdilər, əmrin sayəsində Sənə dua etdilər və nəhayət, *onlara olan nemətini* artırmağı istəyərək Səni təsdiq etdilər.")[2]

---

[1] Bu hədisi Tirmizi "Sünən" əsərində Quranın təfsiri adlı kitabda (2969-cu hədis), habelə digərləri səhih isnadla rəvayət etmişdir.

[2] İmam Zeynulabidin Əli ibn Hüseynin "əs-Sahiyfə əs-Səccadiyyə əl-Kamilə" əsəri səh. 224-225

Mirzə Nuri ət-Tabərsi "Mustədrək əl-Vəsail" əsərində Qutb Ravəndidən Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Quran oxumaqdan sonra ümmətimin ən əfzəl ibadəti duadır." Sonra Peyğəmbər ﷺ bu ayəni oxudu: **"Mənə dua edin, Mən də sizə cavab verim. Həqiqətən, Mənə ibadət etməyə təkəbbür göstərənlər Cəhənnəmə zəlil olaraq girəcəklər"** və dedi: "Məgər görmürsən ki, dua ibadətdir?!"[1]

Kuleyni "əl-Kafi" əsərində Əbu Cəfər əl-Baqirin belə dediyini rəvayət etmişdir: "Qüdrətli və Əzəmətli Allah belə buyurur: **"Həqiqətən, Mənə ibadət etməyə təkəbbür göstərənlər Cəhənnəmə zəlil olaraq girəcəklər."** Burada ibadət deyildikdə, dua qəsd edilir. Dua isə ibadətlərin ən fəzilətlisidir."[2]

Kuleyni "əl-Kafi" əsərində, əl-Hurr əl-Amili də "Vəsail əş-Şiyə" əsərində İmam Cəfər əs-Sadiqin belə dediyini rəvayət etmişdir: "Həqiqətən dua ibadətdir."[3]

Rəvayət edilir ki, Cəfər əl-Baqir belə demişdir: "İbadətlərin ən fəzilətlisi duadır."[4]

Tusi "Təhzib əl-Əhkam" əsərində İbn Ammarın belə dediyini rəvayət etmişdir: "Mən Əbu Abdullah Cəfər əs-Sadiqdən soruşdum: "İki kişi eyni zamanda namaza başladılar. Onlardan biri *namazında həm* Quran oxudu, *həm də dua etdi*. Amma *Quran* oxuması duasından çox oldu. İkinci adam isə çoxlu dua etdi və bunun duası *Quran* oxumasından çox oldu. Sonra bunların hər ikisi eyni zamanda namazlarını bitirdilər. Bu iki nəfərdən hansı biri daha fəzilətlidir?" O dedi: "Hər ikisinin də fəziləti var və hər ikisi yaxşı əməldir." Mən dedim: "Mən də bilirəm ki, hər ikisi yaxşı əməldir və hər ikisinin də fəziləti var." Əbu Abdullah dedi: "Dua daha fəzilətlidir. Məgər Qudrətli və Əzəmətli Allahın: **"Rəbbiniz dedi: "Mənə dua edin, Mən də sizə cavab verim. Həqiqətən, Mənə**

---

[1] "Mustədrək əl-Vəsail" 5/159

[2] "əl-Kafi" 2/466

[3] "əl-Kafi" 2/339, (Dua Kitabı – Duanın fəziləti və ona həvəs oyatmaq fəsli); "Vəsail əş-Şiyə" 7/23, (Dua fəsilləri – Dua və ona həvəs oyatmaq fəsli)

[4] "Vəsail əş-Şiyə" 7/30, (Duanı müstəhəb olan digər ibadətlərdən üstün tutmağın müstəhəbliyi fəsli)

**ibadət etməyə təkəbbür göstərənlər Cəhənnəmə zəlil olaraq girəcəklər."** – dediyini eşitməmisən? Vallahi dua ibadətdir. Vallahi o daha fəzilətlidir. Vallahi o daha fəzilətlidir. Məgər dua ibadət deyilmi?! Vallahi o ibadətdir. Vallahi o ibadətdir. Məgər dua *ibadətlərin* ən tutarlısı deyilmi?! Vallahi o, ibadətlərin ən tutarlısıdır. Vallahi o, ibadətlərin ən tutarlısıdır."[1]

Rəvayət edilir ki, Sudeyr belə demişdir: "Mən Əbu Cəfər əl-Baqirdən soruşdum: "Hansı ibadət daha fəzilətlidir?" O dedi: "Qüdrətli və Əzəmətli Allah yanında, *Ona üz tutaraq* Ondan istəməkdən daha fəzilətli bir şey yoxdur. Habelə, Qüdrətli və Əzəmətli Allahın ən çox nifrət etdiyi adam **Ona ibadət etməyə təkəbbür göstərib Ondan istəməyən** adamdır."[2]

Əbu Həmzənin Əbu Cəfər əl-Baqirdən belə rəvayət olunduğu deyilir: "Mən *Əbu Cəfərdən* soruşdum: "Uca Allahın **"Məgər vəfalı olan İbrahimin *səhifələrində olanlar barədə ona bildirilmədi?"*** ayəsində nə qəsd olunur?" O dedi: "Bəlağətli kəlimələr." Mən, "Bunlar hansı kəlmələrdir?" – deyə yenə soruşduqda o dedi: "O səhərə çıxdıqda belə deyərdi: "Rəbbimə həmd olunduğu halda səhərə çıxdım, Allaha heç bir şeyi şərik qoşmadığım, habelə Onunla yanaşı başqa bir məbuda dua etmədiyim, bir də ki Ondan başqa heç bir himayəçi qəbul etmədiyim halda səhərə çıxdım."[3]

Əbu Cəfərdən yenə soruşuldu: "Hansı ibadət daha fəzilətlidir?" O dedi: "Qüdrətli və əzəmətli Allah yanında, *Ona üz tutaraq* Ondan istəməkdən daha fəzilətli bir şey yoxdur."[4]

Bütün bu dəlillər qəti olaraq onu göstərir ki, həqiqətən dua ibadətdir və duanı Uca Allahdan qeyrisinə yönəltmək, açıq aydın olaraq ibadəti Allahdan qeyrisinə yönəltmək deməkdir.

---

[1] "Təhzib əl-Əhkam" 2/104

[2] Eyni mənbə

[3] "əl-Kafi" 2/388, (Dua Kitabı – Səhərə və axşama çıxdıqda deyilən sözlər fəsli)

[4] Eyni mənbə

# Bunu Allahın peyğəmbərləri demişdir, bəs sən nə deyirsən?

İbrahim aleyhissalam qövmünün bütlərə dua etmələrinə və onlara qurban kəsmələrinə inkar edib demişdir: ***"İbrahim* dedi: "Elə isə Allahı qoyub sizə heç bir fayda və zərər verə bilməyən *bütlərəmi* tapınırsınız?"**[1] – bəli. Nə özünə, nə də başqalarına nə bir xeyir, nə də bir zərər verməyə qadir olmayan *bütlərə* necə ibadət edirsiniz, onlardan necə kömək diləyirsiniz!

Bunu Uca Allah Öz elçisi Muhəmməd ﷺ barəsində demişdir: **"De: "Mən Allahın istədiyindən başqa özümə nə bir fayda, nə də bir zərər yetirməyə qadir deyiləm. Əgər qeybi bilsəydim, əlbəttə, *özüm üçün* xeyir artırardım və mənə pislik toxunmazdı. Mən sadəcə, iman gətirən bir qövm üçün qorxudan və müjdələyənəm."**[2]

Fədl ibn Həsən ət-Təbərsi, **"De: "Mən özümə nə bir fayda, nə də bir zərər yetirməyə qadir deyiləm"** ayəsinin təfsirində belə demişdir: "Bu, qul olmağı izhar etməkdir. Yəni, mən *Allahın* zəif quluyam, özüm üçün nə bir fayda əldə etməyə, nə də bir zərəri özümdən dəf etməyə qadirəm. **"Allahın istədiyindən başqa".** Yəni Rəbbimin, Hökmdarımın mənim üçün istədiyi xeyirdən və məndən dəf etdiyi zərərdən başqa. **"Əgər qeybi bilsəydim"** mənim halım indi olduğum haldan fərqli olardı. Belə ki, özüm üçün xeyir artırar və zərərdən də çəkinərdim. Habelə, döyüşlərdə hərdən qalib, hərdən də məğlub olmazdım. Eləcə də, ticarətdə hərdən qazanc, hərdən də ziyan əldə etməzdim. **"Mən sadəcə"** bir qulam, qorxudan və müjdələyən olaraq göndərilmişəm. Qeyb elmi mənim işim deyil."[3]

Şeyx Muhəmməd Cavad Muğniyə "əl-Kaşif" adlı təfsir kitabında demişdir: **"De: "Mən Allahın istədiyindən başqa özümə nə bir fayda, nə də bir zərər yetirməyə qadirəm."** Bu, müsəlmanların öz peyğəmbərləri, bütün məxluqatın ən şərəflisi Muhəmməd

---

[1] əl-Ənbiya surəsi, 66
[2] əl-Əraf surəsi, 188
[3] "Cəvami əl-Cami" 1/488

ﷺ barəsində olan əqidəsidir. O heç özü üçün bir şey etməyə qadir deyil, nəinki başqası üçün. Bu etiqad Muhəmməd ﷺ barəsindədir və tövhid əqidəsinə görə bu qaçılmaz bir nəticədir. **"Əgər qeybi bilsəydim, əlbəttə, *özüm üçün* xeyir artırardım və mənə pislik toxunmazdı."** Şübhəsiz ki, *ayədəki* "qeyb" kəlməsi sadəcə kəsb etdiyi mənaya dəlalət etmir, əksinə, bu kəlmə həm də qeybin yalnız Allaha məxsus olmasına dəlalət edir. Üstəlik Rəbbinə ən yaxın olan insan *bütün* nəsillərə elan edir ki, o qeybin qarşısında adi bir bəşərdir və *bu məsələdə* onunla digər insanlar arasında heç bir fərq yoxdur. Sonra o bu elanla kifayətlənmir, əksinə, özünün duyğu və hissini də buna dəlil gətirir. Yəni o qeybi bilsəydi, bütün işlərin sonluğunu da bilərdi. Belə olduğu halda isə sonluğu xeyir olan əməlləri yerinə yetirər, sonluğu şər olan əməllərdən isə vaz keçər, beləliklə də, bu həyatda pis və xoşa gəlməz hadisələr onun başına gəlməzdi. Üstəlik, heç kəs deməsin ki, Muhəmməd ﷺ Allaha ən yaxın elçi olduğu halda necə ola bilər ki, qeybi bilməsin? Allahın əmri ilə Muhəmməd ﷺ belə demişdir: **"Mən sadəcə, iman gətirən bir qövm üçün qorxudan və müjdələyənəm."** Həqiqətən də, Muhəmməd Allahın elçisidir və bunda heç bir şübhə yoxdur. Lakin, elçinin vəzifəsi Rəbbinin risalətini insanlara çatdırmaq, Allaha asi olanları əzabla qorxutmaq və Ona itaət edənləri mükafatla müjdələməklə məhdudlaşır. Qeyb elminə, fayda verməyə və zərəri dəf etməyə gəldikdə isə, bunlar yalnız Allahın əlindədir."[1]

Allah Öz peyğəmbərinə ﷺ əmr etmişdir ki, onun heç kəsə nə fayda verməyə, nə də zərər verməyə qadir olmadığını insanlara çatdırsın. Uca Allah əl-Cinn surəsində belə buyurur: **"De: "Mən sizə nə zərər verməyə, nə də *sizi* doğru yola yönəltməyə qadirəm!" De: "Həqiqətən, məni Allahdan heç kəs xilas edə bilməz və mən Ondan başqa bir pənah yeri tapa bilmərəm!"[2]**

Şeyx Tusi "ət-Tibyan" adlı təfsir kitabında bu ayənin təfsirində belə deyir: "Allah Öz peyğəmbəri Muhəmmədə ﷺ əmr etmişdir

---

[1] "Təfsir əl-Kaşif" 3/431
[2] əl-Cinn surəsi, 20-21

ki, bütün mükəlləf olanlara **"Mən sizə nə zərər verməyə, nə də *sizi* doğru yola yönəltməyə qadirəm!"** – desin. Yəni, mən zərəri sizdən dəf etməyə və xeyiri də sizə çatdırmağa qadir deyiləm. Buna yalnız Uca Allah qadirdir. Mən yalnız sizi xeyirə çağırmağa və sizi doğru yola istiqamətləndirməyə qadirəm. Əgər *mənim çağırışımı* qəbul etsəniz mükafat və fayda əldə edərsiz, yox, əgər rədd etsəniz siz *şiddətli bir* cəzaya və ağrılı-acılı bir əzaba düçar olarsınız. Sonra yenə *Uca Allah* buyurur: **"De!"** Yəni, ey Muhəmməd, onlara de ki, **"Həqiqətən, məni Allahdan heç kəs xilas edə bilməz!"** Yəni, Allah mənə cəza vermək istəsə heç kəs məni Allahdan xilas edə bilməz **"və mən Ondan başqa bir pənah yeri tapa bilmərəm!"** Yəni, Allahın mənə verəcəyi əzab və işgəncədən sığına biləcəyim və onun vasitəsilə salamat qalacağım bir sığınacaq yeri *tapa bilmərəm. Hərşənd, bu ayədə* Peyğəmbər ﷺ özünü nəzərdə tutur, lakin əsas məqsəd onun ümmətidir. Çünki, Peyğəmbər ﷺ çirkin əməl etmir ki, ona görə cəzadan qorxsun. Mənası budur ki, Allahdan başqa bir pənap yeri, yəni sığınacaq yer yoxdur."[1]

Şeyx ət-Təbərsi "Məcməul-bəyan" adlı təfsir kitabında belə deyir: "Sonra Allah subhanəhu və təalə Öz Peyğəmbərinə ﷺ xitab edərək belə buyurur: **"De!"** Yəni, ey Muhəmməd, mükəlləf olanlara de ki, **"Mən sizə nə zərər verməyə, nə də *sizi* doğru yola yönəltməyə qadirəm!"** Yəni, mən zərəri sizdən dəf etməyə və xeyiri də sizə çatdırmağa qadir deyiləm. Buna qadir olan yalnız Uca Allahdır. Lakin mən elçiyəm, üzərimə düşən vəzifə də yalnız təbliğ etmək, dinə tərəf çağırmaq və doğru yola istiqamətləndirməkdir. Bu isə *Allah qarşısında* qul olmağı etiraf etmək, habelə güc və qüvvəti yalnız Uca Allaha məxsus etməkdir."[2]

[1] "Təfsir ət-Tibyan" 10/157

[2] "Təfsir məcməul-bəyən" 10/153

## Əhli-beyt bunu özləri barəsində açıqcasına demişdir

Budur, İmam Cəfər əs-Sadiq onu görən, onunla yoldaşlıq edən, habelə onu eşidib görə bilməyən bütün insanların qarşısında açıqcasına elan edərək belə demişdir: "Vallahi, biz sadəcə Allahın qullarıyıq. Biz nə zərər, nə də fayda verməyə qadirik. Əgər Allah bizə rəhm edərsə, Öz mərhəməti ilə rəhm edər, yox əgər bizə əzab verərsə, günahlarımıza görə verər. Vallahi, bizim nə Allaha qarşı bir dəlilimiz var, nə də Allah tərəfindən əlimizdə bir bəraət. Şübhəsiz ki, biz də öləcəyik, qəbrə dəfn ediləcəyik, dirildiləcəyik, həşr olunacağıq, *Allahın hüzurunda* duracağıq və sorğu-sual olunacağıq... Şahid olun ki, mən adi bir insanam, babam Allahın rəsulu ﷺ olduğu halda, Allah tərəfindən mənə bəraət qazandıracaq bir üzrüm yoxdur. Əgər Allaha iatət etsəm, mənə rəhm edər, yox, asi olsam, mənə şiddətli əzab verər."[1]

İmam Cəfər Qüdrətli və Əzəmətli Rəbbinə etdiyi duasında belə deyərdi: "Allahım, bəlalarımızla bizi üzmə və düşmənlərimizi bizə qarşı sevindirmə. Həqiqətən zərər verən də, fayda verən də Sənsən."[2]

Onun nəvəsi İmam Rza isə öz duasında belə deyərdi: "Allahım, güc və qüvvətdən sənə çığınıram. Çünki, güc və qüvvət yalnız Sənə məxsusdur.

Allahım, haqqımız çatmadığı bir şeyi bizim barəmizdə iddia edənlərdən Sənə sığınıram! Allahım, özümüz öz barəmizdə demədiyimiz bir şeyi bizim barəmizdə deyilənlərdən Sənə sığınıram! Allahım, yaratmaq Sənə məxsusdur, işləri yoluna qoymaq Sənə aiddir. Biz yalnız Sənə ibadət edir və yalnız Səndən yardım diləyirik. Allahım, Sən həm bizim Xaliqimizsən, həm də əvvəlki və sonrakı atalarımızın Xaliqisən. Allahım, Rübubiyyət yalnız Sənə layiqdir, Uluhiyyət də yalnız Sənin üçündür. Sənin əzəmətini alçal-

---

[1] "Bihər əl-Ənvar" 25/289

[2] "Qurb əl-İsnad" səh. 40, 10-cu hədis

dan nəsranilərə lənət et! Yaratdıqlarından öz sözləri sayəsində Səni başqalarına bənzədənlərə lənət et!

Allahım, biz Sənin qullarınıq, qullarının övladlarıyıq. Biz özümüzə nə bir zərər, nə də bir xeyir verməyə, habelə nə öldürməyə, nə həyat verməyə, nə də yenidən diriltməyə qadirik. Allahım, bizim tanrı olduğumuzu iddia edənlərdən Sənə sığınırıq. Habelə, kim iddia etsə ki, yaratmaq və ruzi vermək bizə aiddir, İsa peyğəmbərin عليه السلام nəsranilərdən uzaq olduğu kimi biz də onlardan uzağıq. Allahım, onları, iddia etdiklərinə biz dəvət etməmişik. Odur ki, onların dediklərinə görə bizi cəzalandırma və onların iddialarına görə də bizi bağışla."[1]

Bu iki imamın, İmam əs-Sadiqin və İmam Rzanın şahidliyinə nəzər salın. *Bu iki şahidlik* açıq aydın dəlalət edir ki, xeyir və zərər verən yalnız Uca Allahdır, həmçinin əhli-beytdən olan İmam adi bir quldur və o nə özünə, nə də başqasına nə xeyir, nə də zərər verməyə qadirdir. Habelə, bundan qeyrisini iddia edən kəs, İmamların عليهم السلام adından yalan danışmış sayılar və onların özlərinə mənsub etmədikləri şeyləri onlara mənsub etmiş olarlar.

[1] İbn Babaveyh əl-Qummi "əl-Etiqadat" səh. 99

# Təvəssül bir şeydir, məxluqatdan kömək diləyib onlara dua etmək isə başqa bir şeydir

Bizlərdən çoxu böyük xətalara yol verir. Amma bunun səbəbini ondan soruşduqda ya bəhanələr, ya da çətinlik və qınağı özündən qaldıran dəlillər axtarmağa çalışır!

Həqiqətən də, bizlərdən çoxunun başlanğıcı təəssübkeşlik olub. Bu da, müəyyən bir fikirə olan münasibətin şəxsi təəssübkeşlik üzərində qurulmasına görə heç bir dəlilə və sübuta söykənmir. Çünki, biz həmin fikri sevir, ona vərdiş edir və ona hücum edənə qarşı hücum edirik!

Hərçənd, bəziləri elə təsəvvür edə bilər ki, Rəsulullahdan صلى الله عليه وآله və ya əhli-beyt imamlarından, yaxud möhtərəm səhabələrdən, yaxud da *Allahın* dostlarından və əməlisaleh insanlardan kömək diləməyi inkar etməyim təbiətimdə olan kobudluqdan və ya həmin möhtəşəm insanlara olan sevgimin azlığından irəli gəlir, lakin biz bundan uzaqığ uzaq. Çünki biz canımızı və qanımızı həm onların müdafiəsi yolunda, həm də onlara sevgi və məhəbbət bəsləməklə Uca Allaha yaxınlaşmaq üçün fəda edirik.

Lakin mən yəqin bilirəm ki, Allahı, Onun rəsulunu صلى الله عليه وآله, habelə, əhli-beyti və möhtərəm səhabələri sevən hər bir diri qəlb heç bir şübhə olmadan dərk edəcək ki, sevmək heç də ilahiləşdirmək demək deyil, habelə Peyğəmbəri عليه السلام və ya onun əhli-beytini, yaxud da onun səhabələrini sevmək onlara ibadət etmə demək deyil.

Sözsüz ki, hər bir müsəlman nəsranilərin İsa peyğəmbərdən عليه السلام və ya pak Məryəmdən عليها السلام kömək diləmələrini, habelə, onlara dua etmələrini və yalvarmalarını qəbul etmir. Belə olduğu halda müsəlman barəsində "o, İsaya عليه السلام və onun anasına nifrət edir" – deyə fikir formalaşdırmaq olmaz. Odur ki, İsa peyğəmbər عليه السلام və onun anası barəsində deyilənlər, əhli-beyt və başqaları barəsində xüsusən deyilməlidir.

Bu məsələ barəsində mənimlə anamın rəfiqəsi arasında baş verən bir hadisəni xatırlamaq istəyirəm. Bu, sasəcə "təvəkkül" möv-

zusunda baş vermişdi. Belə ki, mən avtomobilə mindiyim zaman anamın rəfiqəsinin "Allaha və Muhəmmədə təvəkkül etdim!" – dediyini eşitdim. Mən ona dedim: "Anacan, Allaha təvəkkül etdim!" – de. Hərçənd, Muhəmməh عليه السلام bizim peyğəmbərimiz və istəklimizdir, lakin o da məxluqdur. Ona təvəkkül etmək caiz deyil. Təvəkkül yalnız tək olan Uca Allaha edilir."

Qadın dedi: "Allaha, sonra da Muhəmmədə təvəkkül etdim!"

Mən gülümsədim və dedim: "Allaha və İsaya təvəkkül etdim, yaxud Allaha, sonra da İsaya təvəkkül etdim! – demək olarmı?"

O dedi: "Xeyir!"

Mən dedim: "Elə isə fərq nədədir?"

Qadın cavab verməyə aciz qaldı. Onda mən ona dedim: "Məgər İsa عليه السلام da peyğəmbər deyilmi?" O dedi: "Bəli, peyğəmbərdir. Amma bu sözü onun barəsində demək olmaz."

Mən dedim: "Anacan! Muhəmməd عليه السلام də peyğəmbərdir, İsa عليه السلام da peyğəmbərdir. Allahın peyğəmbərlərinin söylədikləri barədə Qurani Kərimdə belə xəbər verilir: **"Elçiləri *onlara* dedilər: "Göyləri və yeri yaradan Allaha şəkk etməkmi olar? O, günahlarınızı bağışlamaq və sizə müəyyən vaxta qədər möhlət vermək üçün sizi *iman gətirməyə* çağırır". Onlar dedilər: "Siz də bizim kimi ancaq bir insansınız. Bizi atalarımızın ibadət etdiklərindən döndərmək istəyirsiniz. Elə isə bizə açıq-aydın bir dəlil gətirin". Elçiləri *onlara* dedilər: "Biz də sizin kimi bir insanıq. Lakin Allah Öz qullarından istədiyinə lütfkarlıq edir. Allahın izni olmadan biz sizə heç bir dəlil gətirə bilmərik. Qoy möminlər ancaq Allaha təvəkkül etsinlər."[1]** Allahın peyğəmbəri Yaqub عليه السلام öz övladlarına belə demişdir: **"Allahın iradəsinə qarşı isə heç bir şeylə sizə fayda verə bilmərəm. Hökm yalnız Allahındır. Mən ancaq Ona təvəkkül edirəm. Qoy təvəkkül edənlər də ancaq Ona təvəkkül etsinlər."[2]**

[1] İbrahim surəsi, 10-11

[2] Yusuf surəsi, 67

Məgər bu ayələr təvəkkülün yalnız Uca Allaha edilməsinə dair kifayət edən açıq-aydın dəlil deyilmi?! Həmçinin *bütün* peyğəmbərlər ﷺ güc və qüvvətin onlara məxsus olmadığını bildirməmişlərmi?! Habelə onlar təvəkkülün başqasına deyil, yalnız Allaha edilməsini açıq şəkildə söyləməmişlərmi?

Bu kəlimələr *anamın rəfiqəsinin* qəlbinə yağ kimi yayıldı və Allaha həmd olsun ki, *mənim dediklərimi* qəbul etdi. O gündən bəri həmin qadın yalnız aləmlərin Rəbbi olan Allaha dua edir, Ona təvəkkül edir və yalnız Ondan kömək diləyir.

Həqiqətən də, peyğəmbərlərdən, imamlardan və əməlisaleh insanlardan kömək diləyənlər özlərini dolaşığa salırlar, hətta onlar "duanı məxluqa yönəltmək və ondan kömək diləmək peyğəmbərin və ya əməlisaleh bir insanın hörməti ilə təvəssül etmək kimidir" – deyə iddia etdikləri zaman *yalnız* özlərini aldadırlar.

Bu mövzuya dair gün kimi aydın olan məsələ budur ki, gəlin, təkrar-təkrar "Ey Muhəmməd, köməyimə çat! Ey Əli, köməyimə çat! Ey Mehdi, köməyimə çat! Ey Ceylani, köməyimə çat!" – deyən kimsələrə belə bir sual verək: "Məgər siz bu kəlmələri təkrar-təkrar dediyiniz zaman Allah barəsində düşünürsünüz, yoxsa *köməyə çağırdığınız* o şəxslər barəsində, yəni onların həqiqətən də, sizin köməyinizə çatacaqları barədə düşünürsünüz?"

**"Allah bir adamın daxilində iki ürək yaratmamışdır."**[1]

Həqiqətən də "Allahım, Səndən Muhəmmədin ﷺ hörməti xatirinə *filan şey* istəyirəm! Allahım, peyğəmbərinin ﷺ hörməti xatirinə mənim sıxıntımı aradan qaldır! Allahım, Muhəmmədin və onun ailəsinin xatirinə məni bağışla!" və buna bənzər digər təvəssül formaları[2] ilə, "Ey Əli köməyimə çat! Ya Rəsululllah imdadıma

---

[1] əl-Əhzab surəsi, 4

[2] Həm keçmişdə, həm də indiki dövrdə insanın zatı ilə, (məsələn, "Allahım, Muhəmmədin vasitəsi ilə Sənə təvəssül edirəm!") və ya hörməti ilə, (məsələn, "Allahım, Muhəmmədin hörməti xatirinə Sənə təvəssül edirəm!") Allaha təvəssül etmək barəsində alimlər ixtilaf etmişlər. Bu cür təvəssülü inkar edənlər bunun ən azından bidət olduğunu söyləmişlər. Alimlərdən heç biri bu cür təvəssül növünün şirk olduğunu söyləməmişdir. Çünki, ibadətin əsli dayanmadır,

çat! Ya Rəsulullah sıxıntımı aradan qaldır! Ey Kazım mənə şəfa ver!" və buna bənzər digər ifadə formaları arasındakı fərq açıq-aydın və aşkardır.

Birinci təvəssül formasında müraciət başqasına deyil, birbaşa Uca Allahadır. Belə ki, dua edən adam Rəbbinə dua edərək: "Allahım, mənim filan sıxıntımı aradan qaldır!" və ya "Allahım Səndən filan şeyi diləyirəm!" – deyir, sonra da bu duaya Muhəmmədin ﷺ və ya digər peyğəmbərlərin və əməlisaleh insanların Allah yanında olan hörmətini qoşaraq təvəssül edir.

İkinci formada isə yalnız aləmlərin Rəbbinin qadir olduğu işlərdə, birbaşa məxluqun özündən imdad diləyir. Bizim öhdəmizə düşən budur ki, yalnız Qurana, Sünnəyə və əhli-beyt İmamlarının rəvayətlərinə müvafiq olan, şəriətin buyurduğu şəkildə olan dualarla kifayətlənək.

---

yəni müsəlman olan kəs dəlil olana qədər dayanır, və yalnız Allahın kitabından və ya Onun elçisinin ﷺ səhih hədislərindən dəlil varid olduqdan sonra bu dəlilə əsasən Allaha ibadət edir.

## Bəndə ilə Rəbbi arasında vasitə yoxdur

Allahın kitabı barəsində ətraflı düşünən adam, orada insanların verdiyi suallardan, sonra da onlara verilən ilahi cavablardan bəhs edən çoxlu sayda ayələr görər.

İnsanlar yeni doğulan aylar barəsində soruşduğu zaman Uca Allah belə buyurmuşdur: **"Səndən yeni doğan aylar barəsində soruşurlar. De: "Bunlar insanlar və həcc üçün vaxt ölçüləridir." Evlərə arxa tərəfindən daxil olmağınız yaxşı əməl deyildir. Lakin yaxşı əməl *sahibi* Allahdan qorxan kəsdir. Evlərə qapılarından daxil olun! Allahdan qorxun ki, bəlkə nicat tapasınız."[1]**

Onlar yenə, xərclinələcək şeylər barədə suruşduqda Uca Allah belə buyurmuşdur: **"Səndən *Allah yolunda* nə xərcləyəcəklərini soruşurlar. De: "Xərcləyəcəyiniz hər bir xeyir valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara və müsafirlərə aiddir. Siz nə yaxşılıq edirsinizsə, şübhəsiz ki, Allah onu bilir."[2]**

Haram ayında vuruşmaq barəsində soruşduqda isə Uca Allah belə buyurmuşdur: **"Səndən haram ayında vuruşmaq barəsində soruşurlar. De: "Bu ayda vuruşmaq böyük günahdır. Lakin *insanları* Allah yolundan sapdırmaq, Ona küfr etmək, *müsəlmanları* Məscidulharama buraxmamaq və onun sakinlərini oradan çıxartmaq Allah yanında daha böyük günahdır. Fitnə isə qətldən də böyük günahdır." *Kafirlər* bacarsalar, sizi dininizdən döndərənə qədər sizinlə vuruşmaqdan əl çəkməyəcəklər. Sizlərdən hər kim dinindən dönüb kafir olaraq ölərsə, onların əməlləri dünyada və axirətdə puça çıxar. Onlar Od sakinləridirlər və onlar orada əbədi qalacaqlar."[3]**

Sərxoşedici *içki* və qumar barəsində soruşduqda da Uca Allah belə buyurmuşdur: **"Səndən sərxoşedici *içki* və qumar barəsində**

---

[1] əl-Bəqərə surəsi, 189
[2] əl-Bəqərə, surəsi 215
[3] əl-Bəqərə surəsi, 217

**soruşurlar. De: "İkisində də, həm böyük günah, həm də insanlar üçün mənfəət vardır. Amma günahları mənfəətlərindən daha böyükdür." Səndən *Allah yolunda* nə xərcləyəcəklərini soruşurlar. De: "*Ehtiyacınızdan* artıq qalanını!" Allah ayələri sizə belə bəyan edir ki, bəlkə fikirləşəsiniz."[1]**

Qiyamət barəsində soruşduqda da Uca Allah belə buyurmuşdur: **"Səndən *Qiyamət* saatı barəsində soruşurlar ki, nə vaxt qopacaq? De: "Bu haqda bilgi ancaq Rəbbimə aiddir. *Qopacağı* vaxtı yalnız O, aşkara çıxara bilər. *Bu bilgi* göylərə və yerə də ağır gəlir. O sizə qəflətən gələcəkdir". Sanki onu bilirmişsən kimi səndən soruşurlar. De: "Bu haqda bilgi ancaq Allaha aiddir. Lakin insanların çoxu *bunu* bilmir."[2]**

Amma insanlar Rəsulullahdan ﷺ Allah barəsində, Ona necə dua etmək, Ona hansı yolla üz tutmaq haqqında soruşduqda onlara, **"De!"** kəliməsi zikr olunmadan cavab gəldi. Bu ayə də onu göstərir ki, bəndə ilə Rəbbi arasında vasitə yoxdur və Uca Allah Öz bəndələrinə yaxındır. Ona dua etsələr və Onun əmrini qəbul etsələr onların dualarını qəbul edər. Qüdrət və Əzəmət sahibi olan Allah belə buyurur: **"Qullarım səndən Mənim barəmdə soruşsalar, sözsüz ki, Mən *onlara* yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm. Gərək onlar da, Mənim çağırışımı qəbul etsinlər və Mənə iman gətirsinlər ki, doğru yola yönəlsinlər."[3]**

Möminlərin əmiri Əli عليه السلام oğlu İmam Həsənə etdiyi vəsiyyətdə belə deyir: "Bil ki, göylərin və yerin xəzinəsi əlində olan Allah, dua etmək üçün sənə izn vermiş və *həmin duanı* da dəbul etməyi Öz öhdəsinə götürmüşdür. Həmçinin, sənə *bir şey* əta etmək üçün yalnız Allahın Özündən istəməyi və sənə rəhm etmək üçün yalnız Onun Özündən rəhmət diləməyi əmr etmişdir. Habelə, səninlə

---

[1] əl-Bəqərə surəsi, 219
[2] əl-Əraf surəsi, 187
[3] əl-Bəqərə surəsi, 186

Özü arasında səni Ondan ayıracaq *bir vasitəçi* təyin etməmiş və səndən ötrü Allahdan şəfaət diləsin deyə səni bir kəsə təəf yönəltməmişdir."[1]

Seyid Muhəmməd Hüseyn Fəzlullahın "Min vəhyil-quran" adlı təfsirində gözəl bir şərhi var. O həmin şərhdə belə deyir: "Bəndənin xitab etməsi və ya *bir şey* diləməsi üçün onunla Rəbbi arasında vasitə yoxdur. **"Biz yalnız Sənə ibadət edir və Yalnız Səndən yardım diləyirik!"** ayəsindəki, bəndənin Rəbbinə olan xitabına nəzər saldıqda, insanın ibadəti və yardım diləməyi yalnız Allaha yönəltdiyini görürük. Həmçinin, görürük ki, insanın Allahla söhbətində və Ona etdiyi müraciətində insandan və ya qeyrisindən olan heç bir vasitəçiyə ehtiyacı yoxdur. Çünki, Allah heç vaxt bəndəsindən uzaqlaşmır və Özü ilə bəndəsi arasına da heç bir sədd qoymur. Yalnız bəndənin özü Allahla özü arasında onu Allahın rəhmətindən uzaqlaşdıran, dualarının Allahın yanına qalxmasına mane olan sədlər qoyur. Allah isə duaları qəbul etmək üçün, bəndələrindən birbaşa Ona dua etmələrini istəyir. Həmçinin, bəndələrinə yaxın olduğunu, onların danışıqlarını, pıçıltılarını, hətta qəlblərindən keçirdiklərini belə eşitdiyini xəbər verir. Uca Allah buyurur: **"Qullarım səndən Mənim barəmdə soruşsalar, sözsüz ki, Mən *onlara* yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm. Gərək onlar da, Mənim çağırışımı qəbul etsinlər və Mənə iman gətirsinlər ki, doğru yola yönəlsinlər."** Yenə Uca Allah buyurur: **"İnsanı Biz yaratdıq və nəfsinin ona nəyi vəsvəsə etdiyini də bilirik. Biz ona şah damarından da yaxınıq."[2]**

---

1 "Nəhcul Bəlağə" 3/47, (Əlinin oğlu Həsənə olan nəsihətindən. Hər bir hikməti özündə cəm etmişdir.)

2 "Təfsiru min vəhyil-quran", 25/65-66

## "Ey iman gətirənlər! ... kafirlər kimi olmayın!"

Qurani Kərim bizə əvvəlki ümmətlərin hekayətlərini əyləncə olsun deyə danışmır. Əksinə, ibrət və öyüd-nəsihət almaq üçün, habelə, zəlalət əhlinin əməllərinə öxşamağı qadağan etmək üçün danışır ki, bizim də sonluğumuz onların sonluğu kimi olmasın.

Uca Allah müşriklər barəsində iman əhlinə xəbər vermişdir. Belə ki, müşriklərin bəsirət gözlərini işıqlandırsın və onları şirkdən imana çəkib çıxartsın deyə *Uca Allah* onlara Öz elçisi Muhəmmədi ﷺ göndərmişdir.

Həmçinin, Uca Allah xəbər vermişdir ki, həmin müşriklər Allahın göylərin və yerin xaliqi olduğuna, ölüdən diri çıxartdığına və işləri yoluna qoyduğuna iman gətirirdilər. Qüdrətli Allah belə buyurur: **"Əgər sən onlardan: "Göyləri və yeri kim yaratmışdır?"– deyə soruşsan, mütləq: "Onları Qüdrətli və Bilən *Allah* yaratmışdır!"– deyəcəklər."**[1]

Habelə, Uca Allah buyurur: **"De: "Əgər bilirsinizsə, *deyin görüm* yer və onun üstündə olanlar kimindir?" Onlar: "Allahındır!"– deyəcəklər. De: "Bəs düşünüb ibrət almırsınız?" De: "Yeddi göyün Rəbbi və əzəmətli Ərşin Rəbbi kimdir?" Onlar: "Allahdır!"– deyəcəklər. De: "Bəs qorxmursunuz?" De: "Əgər bilirsinizsə, *deyin görüm* hər şeyin hökmü əlində olan, himayə edən, Özünün isə himayəyə ehtiyacı olmayan kimdir?" Onlar: "Allahdır!"– deyəcəklər. De: "Bəs necə olur ki, aldanırsınız?"**[2]

Uca Allah buyurur: **"Əgər sən onlardan: "Göyləri və yeri yaradan, günəşi və ayı ram edən kimdir?"– deyə soruşsan, onlar mütləq: "Allahdır!"– deyəcəklər. Onlar necə də *haqdan* döndərilirlər! Allah Öz qullarından istədiyinin ruzisini bol edər, *istədiyininkini də* azaldar. Şübhəsiz ki, Allah hər şeyi bilir. Əgər sən onlardan: "Göydən yağış nazil edib onunla yeri quruduqdan sonra**

---

[1] əz-Zuxruf surəsi, 9

[2] əl-Miminun surəsi, 84-89

**canlandıran kimdir?"– deyə soruşsan, onlar mütləq: "Allahdır!"– deyəcəklər. De: "Həmd, Allaha məxsusdur!" Lakin onların çoxu *bunu* başa düşmür."**[1]

Yenə Uca Allah buyurur: **"De: "Sizə göydən və yerdən ruzi verən kimdir? Qulaqlara və gözlərə hakim olan kimdir? Ölüdən diri çıxaran, diridən də ölü çıxaran kimdir? İşləri yoluna qoyan kimdir?" Onlar deyəcəklər: "Allah!" De: "Bəs *belə olduğu halda Allahdan* qorxmursunuz?"**[2]

<u>Elə isə, problem nədədir</u>?!

*Problem ondadır ki,* müşriklər Allahın yaradan, ruzi verən, dirildən və öldürən olduğunu təsdiq edir, lakin bununla yanaşı ibadətin bəzi növlərini Allahdan qeyrisinə yönəldirdilər. Uca Allah bu barədə belə buyurur: **"Onlar Allahı qoyub özlərinə nə bir zərər, nə də bir fayda verə bilməyənlərə ibadət edir və: "Onlar Allah yanında bizim şəfaətçilərimizdir!"– deyirlər."**[3]

Həmin müşriklər belə deyirdilər: "Həqiqətən, Uca Allah Əzəmətlidir, biz isə günah edənlərik. Odur ki, bizimlə Allah arasında vasitəçilərin olması labüddür." Ona görə də, onlar özləri ilə Uca Allah arasında vasitəçilər tutdular və duaları, imdad diləmələri, qurbanları və nəzirləri həmin vasitəçilərə yönəltdilər.

Elə isə sən onlara belə bir sual verə bilərəsən: "Siz bu bütlərinizin həqiqətən ilah olduğuna iman gətirirsiniz, yoxsa onların sizinlə Uca Allah arasında vasitəçilər və aləmlərin Rəbbinin qulları olmasına iman gətirirsiniz?

Onlar sənə belə cavab verəcəklər: "Əlbəttə ki, onlar aləmlərin Rəbbinin qullarıdır. Biz dualarımızı, imdad diləməyimizi, qurbanlarımızı və nəzirlərimizi, sadəcə bizi Uca Allaha daha çox yaxınlaşdırsınlar deyə onlara yönəldirik."

Uca Allah onların bu sözlərini nəql edərək belə buyurur: **"Doğrusu, əsl din ancaq Allaha məxsusdur. Allahı qoyub başqalarını**

---

[1] əl-Ənkəbut surəsi, 61-63

[2] Yunus surəsi, 31

[3] Yunus surəsi, 18

**özlərinə dost tutanlar: "Biz, onlara ancaq bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə ibadət edirik"–** ***deyirlər.*****"**[1]

İbn Əbu Hədid "Nəhcul Bəlağə" kitabının şərhində Məkkə müşrikləri haqqında belə deyir: "Onlar bütlərə ibadət xüsusunda ayrı-ayrı fikirdə idilər. Onların bir qismi öz bütlərini məxluqatı yoxdan Yaradan Allaha şərik qoşur və həmin bütlərə *Allahın* şəriki deyirdilər. Onlar təlbiyə gətirdikdə belə deyərdilər: "Ləbbeykəllahummə ləbbeyk, ləbbeykə lə şərikə ləkə illə şəriykən huva ləkə, təmlikuhu və mə mələk. (tərcüməsi: Hüzurundayam, Allahım hüzurundayam! Hüzurundayam, yalnız Sənə şərik olan birindən başqa Sənin şərikin yoxdur. Sən həm onun özünə, həm də onun sahib olduğu şeylərə sahibsən.)" *Həmin müşriklərin* digər bir qismi isə bütlərinə *Allahın* şəriki adını vermirdilər. Amma onları pak və müqəddəs olan Xaliqə vəsilə və vasitə qoşurdular. **"Biz, onlara ancaq bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə ibadət edirik"** – deyənlər də məhz onlar idi."[2]

Uca Allah Öz kitabında bizə bəyan etmişdir ki, müşriklərə qəfil bir sıxıntı və müsibət gəldiyi zaman onlar öz etiqadlarına zidd hərəkət etmişlər. Belə ki, onlar *sıxıntı anında* öz fitrətlərinə, yəni, Allahın onlara verdiyi fitrətə əsasən başqasına deyil, yalnız Allaha üz tutar, duanı və imdad diləməyi yalnız Allaha məxsus edərdilər. Nəhayət, sıxıntı onlardan getdikdən sonra yenidən Allaha şərik qoşardılar. Onlar pak və müqəddəs Allahın fayda və zərər verən onduğunu bildikləri halda yenə də Allaha şəriklər qoşurdular.

Uca Allah buyurur: **"İnsana bir zərər toxunduqda Rəbbinə üz tutub təkcə Ona yalvarır."** Bu fitrətdən gələn duadır. Sonra Allah belə buyurur: **"Sonra Allah Özündən insana bir nemət verəndə o, əvvəlcə kimə yalvardığını unudur və Allaha şəriklər qoşur."**[3]

Qüdrətli və Əzəmətli Allah buyurur: **"Sizə dənizdə bir fəlakət üz verdiyi zaman Ondan başqa tapındıqlarınız** ***sizdən*** **uzaqla-**

---

[1] əz-Zumər surəsi, 3

[2] "Şərhu Nəhcul Bəlağə" 1/119; Kəlbaykaninin "Nətaicul Əfkar" əsəri səh. 14

[3] əz-Zumər surəsi, 8

**şar."**[1] Bu məhz fitrətdən gələn duadır. Sonra Uca Allah belə buyurur: **"O sizi xilas edib quruya çıxartdıqda isə üz döndərirsiniz. Həqiqətən, insan nankordur!"**[2]

Uca Allah buyurur: **"De: "Doğru danışanlarsınızsa, deyin görüm, əgər sizə Allahın əzabı gəlsə və ya *Qiyamət* saatı sizi haqlasa, Allahdan başqasınımı çağıracaqsınız?" Xeyr! Siz yalnız Onu çağıracaqsınız. Əgər *Allah* istəsə, Ona *uzaqlaşdırması haqqında* yalvardığınız *bəlanı* aradan qaldırar və şərik qoşduğunuz şeyləri unudarsınız."**[3]

Uca Allah buyurur: **"Dalğaların onları bürüyəcəyini yəqin etdikdə isə Allaha – dini məhz Ona aid edərək yalvarıb deyərlər: "Əgər bizi bundan xilas etsən, əlbəttə, şükür edənlərdən olarıq."**[4]

Uca Allah buyurur: **"Onlar gəmiyə mindikləri zaman, dini yalnız Allaha məxsus edərək, Ona yalvarırlar. *Allah* onları xilas edib quruya çıxaran kimi, yenə də *Ona* şərik qoşurlar."**[5]

Uca Allah buyurur: ***"Dağların saldığı*** **kölgələr kimi dalğalar onları çulğadığı zaman onlar dini məhz Allaha məxsus edərək Ona yalvararlar. *Allah* onları xilas edib quruya çıxartdıqda isə aralarından bəziləri *küfrlə iman arasında* orta yol tutar."**[6]

Uca Allah buyurur: **"De: "Acizanə və gizlicə: "Əgər bizi bundan qurtarsan, əlbəttə ki, şükür edənlərdən olarıq"– deyə yalvardığınız zaman sizi qurunun və dənizin zülmətlərindən xilas edən kimdir?"**[7]

Qüdrətli və Əzəmətli Allah buyurur: **"İnsana bəla üz verdikdə uzananda da, oturanda da, ayaq üstə olanda da Bizi çağırar. Bu bəlanı ondan sovuşdurduqda isə sanki ona üz vermiş bəladan ötrü Bizi çağırmamış kimi keçib gedər."**[8]

---

[1] əl-İsra surəsi, 67
[2] əl-İsra surəsi, 67
[3] əl-Ənam surəsi, 40-41
[4] Yunus surəsi, 22
[5] əl-Ənkəbut surəsi, 65
[6] Loğman surəsi, 32
[7] əl-Ənam surəsi, 63
[8] Yunus surəsi, 12

Uca Allah buyurur: **"İnsanların başına bir bəla gəldiyi zaman Rəbbinə üz tutub Ona yalvarırlar. Sonra O, Özündən onlara bir mərhəmət daddıran kimi, onlardan bir dəstə Rəbbinə şərik qoşur."[1]**

Şübhəsiz ki, "Lə iləhə illəllah" kəlməsi təkcə, "Allahdan başqa Yaradan yoxdur" mənasını vermir. *Allahdan başqa Yaradanın olmamasına* hətta İslam dininə qarşı mübarizə aparanlar belə iman gətirirlər.

Həqiqətən də, *"Lə iləhə illəllah" kəliməsinin mənasının dəyişdirilməsi üçün* uzun bir zaman keçmişdir. İnsanlar peyğəmbərlərin dövrlərindən bəri onu özlərinin dar, maddi təsəvvürlərinə uyğun olaraq yavaş-yavaş təhrif etmiş və dəyişdirmişlər. Belə ki, onlar Allahla məxluq arasında vasitəçilər ixtira etmişlər.

Vədd, Suva, Yəğus, Yəuq və Nəsr kimi, Allahın övliyalarını zaman-zaman necə dəyişdirib Allahdan qeyrisinə ibadət edilən, ümid bəslənilən bütlərə çevirilməsi xüsusunda Nuh peyğəmbərin qissəsi buna açıq-aydın misaldır.

İbn Babaveyh əl-Qummi "İləl əş-Şəraii" kitabında İmam Cəfər əs-Sadiqin **"və *özlərinə tabe olanlara* dedilər: "Öz məbudlarınızı tərk etməyin; Vəddi, Suvanı, Yəğusu, Yəuqu və Nəsri tərk etməyin!"[2]** ayəsi barəsində belə dediyini rəvayət etmişdir: "Bu adamlar Qüdrətli və Əzəmətli Allaha ibadət edirdilər. Onlar öldükdən sonra onların qövmu hay-haray saldı və bu *ölüm* onlar üçün ağır gəldi. İblis – ona Allahın lənəti olsun! – həmin anda onların yanına gəldi və onlara belə dedi: "Onların surətlərinə bənzər bütlər düzəldin ki, onlara baxdıqda onları yada salasınız və Allaha ibadət edəsiniz." Onlar da *həmin əməlisaleh insanlara* bənzər bütlər düzəltdilər. Bu insanlar həmin bütlərə baxıb Qüdrətli və Əzəmətli Allaha ibadət edirdilər. Elə ki, qış fəsli gəldi və yağışlar yağmağa başladı onlar bütləri evlərinin içərisinə saldılar. Bu nəsil ölənə qədər insanlar Qüdrətli və Əzəmətli Allaha ibadət etməkdə davam

---

[1] ər-Rum surəsi, 33

[2] Nuh surəsi, 23

etdilər. *Nəhayət, bu nəsildən sonra onların yerinə* övladları gəldi və onlar belə dedilər: "Bizim atalarımız bu bütlərə ibadət edirdilər." Odur ki, onlar Qüdrətli və Əzəmətli Allahı qoyub, həmin bütlərə ibadət etməyə başladılar. Uca Allahın bu ayəsi bunu təsdiq edir: **"Öz məbudlarınızı tərk etməyin; Vəddi, Suvanı, Yəğusu, Yəuqu və Nəsri tərk etməyin!"[1]**

Həqiqətən, "lə iləhə illəllah" kəliməsinin dildə deyilişi asan olsa da, onun mənası günümüzdə bəzilərinin təsəvvür etdiyindən də böyükdür. Ona görə də Uca Allah belə buyurur: **"Bil ki, Allahdan başqa *ibadətə layiq olan* heç bir məbud yoxdur. Sən öz günahlarının bağışlanmasını dilə."** Bu ayədə Uca Allah (**<u>De ki</u>**, Allahdan başqa *ibadətə layiq olan* heç bir məbud yoxdur) – demədi. Çünki, tələb olunan "Lə iləhə illəllah" şəhadətinin batində və zahirdə ehtiva etdiyi şeyləri təsdiq etməkdir.

Demək "Lə iləhə illəllah" kəlməsinin mənası belədir: "Allahdan başqa kainatda ibadət olunmağa layiq olan məbud yoxdur", "Allahdan başqa ruzi verən yoxdur", "Allahdan başqa işləri idarə edən yoxdur"...

Allahdan başqa heç kəs, Allahdan başqa heç kəsə təvəkkül etmirik, Allahdan başqa heç kəsə ümid bəsləmirik, Allahdan başqa heç kəsdən qorxmuruq...

Ondan başqa heç kəsə üz tutmuruq və Ondan başqa heç kəsə boyun əymirik...

Duada ovuclarımızı Ondan başqa heç kəsə tərəf qaldırmırıq...

Əllərimizi Ondan başqa nə peyğəmbərlərə, nə də övliyalara tərəf qaldırırıq!

Qüdrətli və Əzəmətli Allah Öz elçilərini göndərmişdir ki, onlara itaət edilsin, onlardan imdad dilənilməsin! **"Biz hər bir elçini, – Allahın izni ilə, – məhz itaət edilsin deyə göndərdik."[2]**

---

[1] İbn Babaveyh əl-Qumminin "İləl əş-Şəraii" əsəri (əs-Saduq) 1/3, ("O səbəb ki, ona görə bütlərə ibadət olunmuşdur" fəsli)

[2] ən-Nisa surəsi, 64

Allah Öz elçilərini göndərmişdir ki, onlar *insanların istəyini Allaha* çatdıran vasitəçi yox, *Allahın isəyini insanlara* çatdıran vasitəçi olsunlar.

Odur ki, onlar bizim Allaha göndərdiyimiz elçilər yox, əksinə, Allahın bizə göndərdiyi elçiləridir.

Onlar bizim Allahdan istədiyimizi Ona çatdırmırlar, əksinə, Allahın bizdən istədiyini bizə çatdırırlar.

## Adlar fərqli olsa da, üslublar bir-birinə bənzəyir

**"Allahdan savayı çağırdıqlarınız da sizin kimi qullardır. Əgər doğru deyirsinizsə, çağırın onları, sizə cavab versinlər."[1]**

Bu ayə bəyan edir ki, müşriklərin hamısı (ərədi də, qeyri ərəbi də) keçmişdə özləri ilə Uca Allah arasında təkcə bütləri vasitəçi tutmamışdılar. Onların bəziləri *özləri ilə Allah arasında* insanlardan da vasitəçi tutmuşdular. Buna, özləri ilə Uca Allah arasında Məryəmi عليها السلام vasitəçi tutan nəsraniləri misal çəkmək olar. Onlar Məryəmə dua edir və ondan imdad diləyirdilər. Onlar qəlblərinin dərinliyində bilirdilər, hətta dilləri ilə də təsdiq edirdilər ki, Məryəm عليها السلام ibadət olunan ilah deyil. Habelə bu onların öz kitablarında da var.

Odur ki, ibadət olunan adlar və şəxsiyyətlər fərqli olsa da, ibadət formaları bir-birinə bənzəyir.

Məqsədimizi çatdırmaq üçün sözümüzə başlayaraq deyirik: "Həqiqətən də, özləri ilə Allah arasında vasitəçilər tutub onlara təvəkkül edən, onlardan imdad diləyən, onlar üçün nəzir verən və onlar üçün qurban kəsən insanların bəzilərinə, onların etdikləri bu əməlləri mühakimə edən ayə və hədislər göstərdikdə bəlkə də onlardan biri sənin üzünə etiraz edərək belə deyər: "Sən peyğəmbəri və ya imamı, yaxud da övliyanı bütlərə bənzədirsən?!"

Müsəlmanın, istənilən peyğəmbəri və ya müsəlman imamlarından istənilən birini, yaxud da əməlisaleh insanlardan istənilən birini bütlərə bənzətməsi mümkün deyil. Çünki bilirik ki, bu böyük şəxsiyyətlər heç vaxt razı olmazlar ki, Allahı qoyub onların özlərinə və ya başqalarına ibadət olunsun. Necə ki Uca Allah belə buyurur: **"Heç bir kəsin, Allah ona Kitab, hikmət və peyğəmbərlik verdikdən sonra insanlara: "Allaha yox, mənə qul olun!"– deməsi mümkün deyil. Əksinə, *o belə deyər*: "Öyrətdiyiniz Kitabın və *ondan* öyrəndiyiniz şeyin sayəsində rəbbani olun!" O sizə mə-**

---

[1] əl-Əraf surəsi, 194

**ləkləri və peyğəmbərləri özünüzə rəbb qəbul etməyi buyurmaz. Məgər o sizə, siz müsəlman olduqdan sonra küfr etməyi əmr edərmi?"**[1]

Lakin burada oxşatma dua edən adamın etdiyi əməldə baş vermişdir. Məkkə əhli bütlərə dua edir, nəzirləri və qurbanları onlar üçün verirdilər ki, *bu əməllər* öz növbəsində onları Uca Allaha yaxınlaşdırsın. Bunlar isə dua, imdad diləmək, nəzir vermək və digər əməllərlə peyğəmbərlərə, imamlara və əməlisaleh insanlara üz tuturlar ki, bu əməllər onları Uca Allaha yaxınlaşdırsın!

Elə isə, "Ey pak və müqəddəs Məryəm!... Mənim ehtiyaclarımı ödə!" – deyərək Məryəmdən عليها السلام imdad diləyən adamla, "Ey *Fatimeyi* Zəhra!... Mənim ehtiyaclarımı ödə!" – deyib Fatimədən عليها السلام imdad diləyən adam arasında həqiqi fərq nədir? **"Onların qəlbləri bir-birinə bənzəyir. Biz yəqinliklə inanan bir qövmə dəlillərimizi bəyan etdik."**[2]

[1] Ali-İmran surəsi, 79-80

[2] əl-Bəqərə surəsi, 118

# Əhli-beyt onları sevən kimsələrə məşru olan təvəssülü öyrədərdi

Uca Allah möminləri təqvalı olmağa və itaət etməklə Ona yaxınlaşmağa təşviq edib buyurur: **"Ey iman gətirənlər! Allahdan qorxun, Ona *yaxınlaşmaq üçün* vasitə axtarın və Onun yolunda cihad edin ki, bəlkə nicat tapasınız."**[1]

Tusi bu ayənin təfsirində belə deyir: "Allah bu ayədə möminlərə xitab edir və onlara əmr edir ki, Ondan qorxsunlar. Yəni, günah işlərdən çəkinsinlər və onlardan uzaq dursunlar. Habelə, Allaha yaxınlaşmaq üçün vasitə axtarsınlar! Yəni, Ona yaxınlaşmaq üçün vasitə istəsinlər. Bu da, *Allaha* yaxın olmaq deməkdir."[2]

"Təfsiru Şubbər" kitabında isə belə deyir: "Yəni, Allahın mükafatını qazanmaq üçün Ona itaət vasitəsilə təvəssül etsinlər!"[3] Həmçinin, "Təfsiru əl-Cəuhər əs-Səmin" adlı kitabında belə deyir: "Yəni, Allahın mükafatını, Onun Cənnətini və Onun rizasını qazanmaq üçün Ona itaət vasitəsilə təvəssül etsinlər!"[4]

Fəxrəddin ət-Tariyhi "Təfsiru Ğarib əl-Quran" kitabında belə deyir: **"Ona vasitə axtarın!"** Yəni, Qüdrətli və Əzəmətli Allaha yaxın olmaq. Vasitə: yaxın olmaqdır."[5]

Həqiqətən əhli-beyt عليهم السلام bəyan etmişdir ki, təvəssül Allahla bəndəsi arasında vasitəçilər tutmaqla olmur, əksinə saleh əməllər vasitəsi ilə olur.

Budur, İmam Əli İbn Əbu Talib "Nəhcul Bəlağə" əsərində təvəssülün və duanın ədəblərini bizə vəsf edərək belə deyir: "Allah subhanəhu və təaləyə təvəssül edənlərin təvəssül etdikləri ən əfzəl əməl Allaha və Onun elçisinə iman gətirmək, Onun yolunda İslamın ən uca zirvəsi sayılan cihad etmək, fitrətdən sayılan ixlas kəli-

---

[1] əl-Maidə surəsi, 35
[2] ət-Tibyan, 3/509
[3] "Təfsiru Şubbər" 1/112
[4] "Təfsiru əl-Cəuhər əs-Səmin" 2/170
[5] "Təfsiru Ğarib əl-Quran" səh. 484

məsini tələffüz etmək, dindən hesab olunan namaz qılmaq, fərz və vacib sayılan zəkat vermək, əzabdan qoruyucu qalxan sayılan ramazan orucunu tutmaq, kasıblığı aradan qaldıran və günahları silib aparan həcc və ümrə ziyarətlərini etmək, mal-dövləti artıran və ömrü uzadan qohumluq əlaqələrini birləşdirmək, xətaların kəffarəsi sayılan gizli sədəqəni vermək, pis ölümü dəf edən aşkaqda verilən sədəqəni vermək, rəzil halda ölməkdən qoruyan xeyirxah işlər görməkdir."[1]

İmam Səccad təvəssül və imdad diləməklə əlaqəli ifadələrini öz dualarında səmimi və aydın şəkildə ifadə edərdi. Əbu Həmzə əs-Sumali rəvayət edir ki, İmam Səccad dua edərkən belə deyərdi: "...Öz ehiyacım üçün istədiyim zaman dua edib çağırdıqda və heç bir vasitəçi olmadan ürəyimdəkini istədiyim zaman Allahla təkliyə çəkildikdə, ehtiyacımı ödəyən Allaha həmd olsun!.. Dua etdiyim Allaha həmd olsun. Mən ondan qeyrisinə dua etmirəm. Əgər Ondan qeyrisinə dua etsəydim, onlar duamı qəbul dua bilməzdi.."[2]

O, həmçinin, deyərdi: "Allaha həmd olsun ki, Ondan qeyrisinə ümid bəsləmirəm. Əgər Ondan qeyrisinə ümid bəsləsəydim ümidimi puça çıxarardı."

O itaətkarlara aid olan xəlvəti dualarında deyərdi: "Sənin Özündən başqa bizim Sənə sayəsində yaxınlaşağımız *heç bir* vəsilə yoxdur."[3]

O, həmçinin, deyərdi: "Mühim məsələlərdə yalnız dua edilməli, müsibət gəldikdə yalnız Sənə pənah aparılmalıdır."[4]

O, habelə, deyərdi: "Mənim ümidlərimdə heç kəs Sənə şərik deyil. Dualarımda da heç kəs Səninlə bir araya gəlməz və *dualarımı Səndən başqa heç kəs* yoluna qoya bilməz. Mən yalnız Səni çağırıram."[5]

---

[1] "Nəhcul Bəlağə" səh. 163, № 110 (Əlinin ◎ dinin ərkanları adlı xütbəsindən)
[2] "əs-Sahifətus Səccadiyyə" səh. 214
[3] "əs-Sahifətus Səccadiyyə" səh. 411
[4] "əs-Sahifətus Səccadiyyə" səh. 67
[5] "əs-Sahifətus Səccadiyyə" səh. 144

İmam Cəfər əs-Sadiq belə deyərdi: “Mən qəm-qüssə çəkən inşana təəccüb edirəm. Axı nə üçün o, Qüdrətli və Əzəmətli Allahın **“Səndən başqa *ibadətə layiq olan* heç bir məbud yoxdur! Sən paksan, müqəddəssən! Mən isə, həqiqətən, zalımlardan olmuşam!”** – ayəsinə müraciət etmir. Həqiqətən də mən bu ayənin ardınca Uca Allahın belə dediyini eşitmişəm: **“Biz onu qəm-qüssədən qurtardıq. Biz möminləri belə xilas edirik!”**[1] Habelə mən hiyləyə məruz qalan insana təəccüb edirəm. Axı o nə üçün Uca Allahın **“Mən öz işimi Allaha həvalə edirəm. Həqiqətən, Allah qullarını görəndir.”**[2] – ayəsinə müraciət etmir. Həqiqətən mən bu ayənin ardınca Uca Allahın belə dediyini eşitmişəm: **“Allah *Musanı* onların qurduğu hiylələrin şərindən qorudu.”**[3]

İmam Cəfər Rəbbinə etdiyi duasında belə deyərdi: “Allahım, nə göylər və yerlər özlərinin içində olanları, nə bir kəs qəlbində olanları, nə bir örtük arxasında olanları, nə bir dağ öz kökündə olanları, nə bir dəniz öz dərinliyində olanları Səndən gizləə bilər. Allahım, nə dua edənlərin səsləri Səni dolaşığa salar, nə diləklərin çoxluğu Sənə çox görünər, nə də dinsizlərin dinsizliyi Səni narahat edər.”[4]

Əlbəttə ki, bu xislət yalnız Qüdrətli və Əzəmətli Allaha məxsusdur. Əgər bütün məxluqat *eyni zamanda* özlərinin Rəbbi *olan Allahı* çağırıb, Ondan imdad diləsələr, yaradılanların Rəbbi onların səslərini yanlış eşitməz və onları qarışıq salmaz. Habelə, diləklərin çöxluğu və dinsizlərin dinsizliyi Ona ağır gəlməz. Məgər imamlara dua edib, onlardan imdad diləyənlər bu xislətləri onlarda tapa bilərlərmi?

Məgər İmam Əli və ya İmam Rza sağlıqlarında ikən (Hindistanda, Pakistanda, İraqda, Bəhreyndə, Livanda, İranda, Küveytdə və sairə dövlətlərdə olan) milyonlarla imdad diləyənləri eşidirdilərmi ki, indi də vəfat etdikdən sonra onları eşitsinlər?!

---

[1] əl-Ənbiya surəsi, 88
[2] Ğafir surəsi, 44
[3] “əl-Xisal” səh. 218
[4] “Qurbul İsnad” səh. 6, hədis № 18

# Əhli-beyt Allahdan kömək diləyirdi, bəs sən kimdən kömək diləyirsən?

İbn Babaveyh əl-Qummi, Suleyman ibn Mehrandan, o da İmam əs-Sadiqdən, o da öz atası Muhəmməd əl-Baqirdən, o da öz atası Əli ibn Hüseyndən, o da öz atası Hüseyn ibn Əlidən, o da öz atası Əli ibn Əbu Talibdən ﷺ Rəsulullahın belə dediyini rəvayət etmişdir: "Həqiqətən Qüdrətli və Əzəmətli Allahın doxsan doqquz – yüzdən bir əskik – adı var. Kim onları sadalasa, Cənnətə daxil olar." Sonra o, əl-Ğəyyas da daxil olmaqla *Allahın* çoxlu adlarını zikr etdi.[1]

Şeyx İbn Fəhd əl-Huliyy Uca Allahın "əl-Ğəyyas" adının təfsiri barəsində belə deyir: "Bu adın mənası: "əl-Muğis" (xilaskar, kömək edən) deməkdir. Sıxıntı içində olanlara çox kömək etməyini, habelə darda qalan kimsələrin yalvarışlarına çox cavab verməyini geniş əhatə etsin deyə həmin ad *"ğasə" felinin* məsdər formasında işlənib."[2]

Çox qəribədir! Necə ola bilər ki, bəndəni yaradan, onu kamilləşdirən və ona gözəl surət verən Rəbb unudulsun və özü ehtiyac içində olan həmin bəndəyə dua edilsin?!

Hər bir müsəlman bilir ki, imamın özü onu Yaradana möhtacdır, Ona boyun əyir, Ona ehiyacı var, ehtiyac duyduğu zaman Ondan imdad diləyir, gecə və gündüz Ona ümid bəsləyir. Elə isə bəndə nə üçün Bəxşedəni, hər bir şikayəti Eşidəni tərk edib, duasını və imdad diləməsini imama yönəldir?!

İmam əs-Sadiq hər bir müsəlman üçün çox gözəl bir məsəl çəkmişdir. Onun həmin məsəli təsdiq edir ki, köməyi yalnız Allahdan diləmək lazımdır, üstəlik, *hər bir* məxluq zəifdir, özü idarə olunur və bu Əzəmətli Rəbbin hakimiyyətinə boyun əyir, habelə, özünə nə bir fayda, nə də bir zərər verməyə qadirdir.

---

[1] "Kitabut Tovhid" səh. 194 və "əl-Xisal" səh. 593

[2] "Uddətu əd-Daii" səh. 307

İbn Babaveyh əl-Qummi, İmam Həsən əl-Əskərdən onun, Qüdrətli və Əzəmətli Allahın "Bismilləhir-Rəhmanir-Rahim" kəlməsi barəsində belə dediyini rəvayət etmişdir: "Allah *elə bir varlıqdır ki,* hər bir məxluq ehtiyac içində olduqda və çətin anlarda, habelə, Ondan qeyri olanların hamısından ümid üzüldüyü zaman, Ona tərəf üz tutur və Ondan qeri olanların hamısından səbəblər qırılır. "Bismilləh" yəni, bütün işlərimdə Allahdan yardım diləyirəm. O Allah ki, ibadət edilmək yalnız Onun haqqıdır. O, kömək diləyənə kömək edir, dua edənin də, *dualarına* cavab verir. Bir kişi İmam əs-Sadiqdən ﷺ soruşur: "Ey peyğəmbərin övladı, mənə Allahı başa sal görüm, O necə varlıqdır? Doğrusu, mübahisə edənlər məni çox sıxışdırır və məni çətinliyə salırlar." İmam əs-Sadiq dedi: "Ey Allahın qulu! Sən heç gəmiyə minmisənmi?" Adam, "bəli" – deyə cavab verdi. O dedi: "Çoxmu olub ki, *fikirləşirsən, fırtına baş verəcəyi zaman* məni xilas edən bir gəmi olmayacaq və üzmək də mənim köməyimə yetməyəcək?" Adam dedi: "Bəli." O dedi: "Həmin anda sənin qəlbin, səni bu çətin vəziyyətindən xilas etməyə qadir olan bir varlığa bağlanırmı?" O dedi: "Bəli." İmam əs-Sadiq ﷺ dedi: "Heç bir sığınacaq yeri olmadığı zaman sığınacaq verməyə və heç bir kömək yeri olmadığı zaman kömək etməyə qadir olan həmin o varlıq Allahdır."[1]

Başqa bir rəvayətdə İbn babaveyh deyir: "Allah *elə bir varlıqdır ki,* hər bir məxluq ehtiyac içində olduqda və çətin anlarda, habelə, Ondan qeyri olanların hamısından ümid üzüldüyü zaman, Ona tərəf üz tutur və Ondan qeri olanların hamısından səbəblər qırılır. Belə ki, bu dünyada *insanlara* rəhbər olan və onlara hökmranlıq edən istənilən bir kəsin var-dövləti və azğınlığı nə qədər böyük olsa da, habelə, ehtiyaclarının çoxluğundan asılı olmayaraq ona möhtac olanların *ehtiyaclarını ödəsə də,* insanlar elə bir şeylərə möhtac olacaqlar ki, həmin hökmdar onlara istədiklərini verməyə qadir olmayacaq. Həmçinin, həmin başçının özü elə bir şeyə möhtac olacaq ki, onu əldə etməyə belə qadir olmayacaq. Belə olduğu təq-

[1] "Kitabut Tovhid" səh. 230

dirdə isə onun özü, ehtiyac və zərurətdən dolayı Allaha üz tutacaq. Nəhayət, onun sıxıntısı getdikdən sonra yenidən *əvvəllər etdiyi* şirk əməlinə qayıdacaq. Məgər Qüdrətli və Əzəmətli Allahın bu kəlamını eşitməmisən: **"De: "Doğru danışanlarsınızsa, deyin görüm, əgər sizə Allahın əzabı gəlsə və ya *Qiyamət* saatı sizi haqlasa, Allahdan başqasınımı çağıracaqsınız?" Xeyr! Siz yalnız Onu çağıracaqsınız. Əgər *Allah* istəsə, Ona *uzaqlaşdırması haqqında* yalvardığınız *bəlanı* aradan qaldırar və şərik qoşduğunuz şeyləri unudarsınız."**[1]

Qüdrətli və Əzəmətli Allah Öz qullarına belə buyurur: "Ey, Mənim rəhmətimə möhtac olan qullarım! Hər bir halınızda Mən sizi Özümə möhtac etmişəm. Hər zaman acizanə Mənə itaət etməyinizi sizə lazım gördüm. Tam yerinə yetirməsinə ümid edərək və gözəl aqibətə nail olmağa can ataraq etdiyiniz hər bir işdə Mənə tərəf yönəlin. Əgər Mən sizə nə isə vermək istəsəm, Məndən qeyrisi buna mane ola bilməz. Əgər nəyinsə sizə verilməsinə mane olsam, Məndən qeyrisi onu sizə verə bilməz. İstənilməyə daha haqlı olan Mənəm. Boyun əyilməyə layiq olan Mənəm. Kiçikliyindən və ya böyüklüyündən asılı olmayaraq, hər bir əməlin başlanğıcında "Bismilləhir Rəhmanir Rahim" – deyin. Yəni, bu əməli yerinə yetirməkdə, Allahdan yardım diləyirəm. O Allah ki, ibadət Ondan qeyrisinə layiq deyil, Ondan kömək dilədikdə kömək edər və Ona dua edildikdə *dualara* cavab verər."[2]

Çətin anlarında qəlbləri məxluqata bağlı olan, habelə, heç bir sığınacaq yerinin olmadığı bir vaxtda *yalnız* imamlardan yardım diləyənlər bu iki imamın, İmam əs-Sadiqin və İmam əl-Əskərin sözləri barəsində yaxşı düşünsələr, həmin imamların öyrətdiklərindən və tövhidindən çox-çox uzaq oluqlarını bilərlər.

Axı İmam əs-Sadiq (gəmiyə minən və dənizdə fırtına qopacağını ehtimal edib, o fırtınadan qurtula bilməyəcəyini düşünən) kişi-

1 əl-Ənam surəsi, 40-41
2 İbn Babaveyh əl-Qumminin "ət-Tovhid" əsəri, səh. 231

yə, sıxıntı və çətin anlarında onu xilas edənin yalnız Uca Allah olduğunu bəyan edib demişdir:

"Həmin anda sənin qəlbin, səni bu çətin vəziyyətindən xilas etməyə qadir olan bir varlığa bağlanırmı?" O dedi: "Bəli." İmam əs-Sadiq ﷺ dedi: "Heç bir sığınacaq yeri olmadığı zaman sığınacaq verməyə və heç bir kömək yeri olmadığı zaman kömək etməyə qadir olan həmin o varlıq Allahdır." İmam əs-Sadiq o kişiyə: **"Sənin başına bir müsibət gəldikdə *Fatimeyi* Zəhradan və ya məndən yardım dilə ki, sənin ehtiyacını ödəyim"** – deməmişdir.

Sən bu möhtərəm imamın o kişiyə dediyi: **"Həmin anda sənin qəlbin, səni bu çətin vəziyyətindən xilas etməyə qadir olan bir kimsəyə bağlanıbmı?"** sözü barəsində bir düşün. Onda bilərsən ki, əgər qəlb Uca Allaha bağlı olmağa öyrəşməyibsə, şirkdən xatircəm deyil. Elə isə, istər peyğəmbərlər, istər imamlar, istər də əməlisaleh insanlar olsun, fərq etməz qəlblərini bu məxluqata bağlı olub çətin və sıxıntı anlarında onları çağıranlar hara, Rəbbini tanıyan, sıxıntı anlarında qəlbi yalnız Rəbbinə bağlı olub Onu səsləyən, müti və aciz halında yalnız Ondan yardım diləyən və onun bu sıxıntısını aradan qaldırmağa yalnız Uca Allahın qadir olduğunu düşünən kimsələr hara?

Bu məsələ çox təhlükəli olduğuna görə əhli-beytin ona olan münasibəti açıq-aydın olub və həmin bu açıq-aydın olan məsələ barəsində də onların *fikirləri heç vaxt* bir-birindən fərqlənməyib. Buna isə "Allahdan qeyrisinə dua etmək" məsələsində toxunmuşduq.

Budur, İmam Zeynulabidin Əli ibn əl-Hüseyn müti halında Uca Allaha dua edərək belə buyurur: "Ey himayədarım! Ey himayədarım! Sən himayədarsan, mən isə qul. Məgər qula yalnız himayədar rəhm etmirmi!? Ey himayədarım! Ey himayədarım! Sən Qüdrətlisən, mən isə aciz. Məgər aciz olana yalnız Qüdrətli olan rəhm etmirmi!? Ey himayədarım! Ey himayədarım! Sən Xaliqsən, mən isə məxluq. Məgər məxluqa yalnız Xaliq rəhm etmirmi!? Ey himayədarım! Ey himayədarım! Sən əta edənsən, mən isə istəyən. Mə-

gər istəyənə yalnız Əta edən rəhm etmirmi!? Ey himayədarım! Ey himayədarım! Sən imdad edənsən, mən isə imdad diləyəm. Məgər imdad diləyənə yalnız imdad edən rəhm etmirmi!?"[1]

Bu cür *dua* etməklə İmam Zeynulabidin bütün insanlara bildirmək istəyir ki, imdad edən məhz Uca Allahdır. İmam isə özü üçün Allahdan imdad diləməkdən, Onun rəhmətinə, əfvinə, ətasına və məğfirətinə ümid bəsləməkdən başqa bir şeyə qadir deyildir.

Budur, İmam Muhəmməd əl-Baqir öz nənəsi Fatimeyi Zəhra barəsində belə xəbər verir: Peyğəmbərin ﷺ qızı Fatimə peyğəmbərdən ﷺ sonra altmış gün yaşadı. Sonra o, xəstəliyə tutuldu, xəstəliyi ağırlaşdı ağır vəziyyət olduğu halda Rəbbinə belə dua etdi: "Ey *əbədi* Yaşayan, ey Qəyyum [kainatı yaradan və onu idarə edən, bəndələrinin işlərini yoluna qoyan və onları qoruyan]! Mərhəmətin sayəsində Səndən kömək diləyirəm. Mənə kömək et! Allahım, məni Oddan uzaqlaşdırıb Cənnətə daxil et və məni atam Muhəmmədə ﷺ qovuşdur!"[2]

Bir bax gör, ən fəzilətli dünya qadınlarından sayılan Fatimeyi Zəhra kimdən yardım diləyir. Atası Muhəmmədi ﷺ olduqca çox sevməsinə, habelə, Allahdan onu atasına qovuşdurmasını diləməsinə baxmayaraq, o, Rəsulullahdan ﷺ deyil, əksinə, özünün və atasının ﷺ Rəbbindən imdad diləyir.

Eləcə də İmam Cəfər əs-Sadiq Allahdan imdad diləməklə və Ona ümid bəsləməklə özünün yalnız Qüdrətli və Əzəmətli Allaha möhtac olduğunu bildirərək belə deyərdi: "Allahım, Sən mənim sözlərimi eşidirsən, məqamımı görürsən, sirrimi və aşkarda etdiklərimi bilirsən, mənim əməllərimdən heç biri Sənə gizli qalmır, mən biçarə, həm də, ehtiyac içində olan birisiyəm, habelə, imdad diləyən və sığınacaq istəyən, qorxu və ümid içində yaşayan, günahlarını etiraf edib boynuna alan birisiyəm! Səndən yoxsulun

[1] "əs-Sahifətus Səccadiyyə" (əl-Əbtahinin cəm etdiyi), səh. 386 (Zəlillik barəsində Zeynulabidinin ◎ duası)

[2] Məclisinin "Biharul Ənvar" kitabı, 43/217

istədiyi kimi istəyir, Sənə günahkar və acizanə kimi yalvarır,[1] qorxu içində olanın və korun dua etdiyi kimi dua edirəm! Boynunu Sənin üçün bükən, göz yaşlarını Sənin üçün axıdan, qorxusunu Sənə yönəldən və ehtiyacını Sənə ərz edənlərin duası kimi *Sənə dua edirəm*. Allahım, Sənə etdiyim dua sayəsində məni *heç vaxt* bədbəxt etmə. Ey istənilənlərin xeyirlisi və *istənildiyi zaman* əta edənlərin xeyirlisi! Mənə şəfqət göstər və mənə rəhm et! *Həqiqətən* həmd aləmlərin Rəbbinə məxsusdur."[2]

*İmam Cəfər* öz ardıcıllarına hacət namazını qılmağı öyrədərək belə buyurur: "Gecənin axır üçdə birində qalx və iki rükət namaz qıl. Bu rükətlərdə əl-Mulk və əs-Səcdə surələrini oxu, sonra da belə dua et: "Ey Rəbbim! *Nə qədər* gözlər vardır ki artıq yuxudadır, ulduzlar artıq dağılıb, Sən *əbədi* Yaşayansan, Qəyyumsan [kainatı yaradan və onu idarə edən, bəndələrinin işlərini yoluna qoyan və onları qoruyansan]! Səni nə mürgü, nə də yuxu tutar. Nə qaranlıq gecə, nə bürclü səma, nə döşənmiş yer, nə ucu-bucağı görünməyən dəniz, nə də bir-birinin üstündə olan qaranlıqlar Səndən gizlənə bilməz. Ey, yaxşıların çağırışını *eşidən,* imdad diləyənlərin imdadına yetən! Sənin rəhmətinlə Səndən imdad diləyirəm!"[3]

Bir bax gör İmam kimdən yardım diləyir? İmdad diləmək üçün kimə dua edir?

Şübhəsiz ki, İmam Cəfər Qüdrətli və Əzəmətli Rəbbindən yardım diləyir və ardıcıllarını da ehtiyac zamanı imamdan yox, məhz Uca Allahdan imdad diləməyə çağırır!

Həmçinin, İmam əs-Sadiq xəbər vermişdir ki, Uca Allahdan imdad diləmək Adəmdən عليه السلام Muhəmmədə ﷺ qədər olan bütün peyğəmbərlərin sünnəsidir.

İmam əs-Sadiq belə buyurur: "Üç şey vardır ki, onları Adəmdən عليه السلام Rəsulullaha ﷺ qədər bütün peyğəmbərlər bir-birilərinə

---

[1] Mənbədə bu cür yazılıb. Amma əslində belədir: "Sənə günahkar və acizanə olanların yalvarışı kimi yalvarıram!"

[2] Məclisinin "Biharul Ənvar" kitabı, 91/225

[3] ət-Tabərsinin "Məkarim əl-Əxlaq" əsəri, səh. 337

ötürmüşlər. Onlar səhərə çıxanda belə deyərdilər: "Allahım, Səndən qəlbimi idarə edəcək iman diləyirəm! *Habelə Səndən elə bir* yəqinlik istəyirəm ki, onun sayəsində bilim ki, Sənin mənim üçün yazdığından başqa mənim başımıa heç nə gəlməyəcək. Mənim üçün böldüyün *ruzidən* məni razı sal ki, sonraya saxladığının tez verilməsini və tez verdiyinin də sonraya saxlanılmasını istəməyim! Ey *əbədi* Yaşayan, ey Qəyyum [kainatı yaradan və onu idarə edən, bəndələrinin işlərini yoluna qoyan və onları qoruyan]! Mərhəmətinlə kömək diləyirəm! Mənim bütün işlərimi yoluna qoy! Məni heç vaxt bir göz qırpımı belə başlı-başına buraxma! Allahım, Muhəmmədə və onun ailəsinə xeyir-dua ver!"[1]

Əgər peyğəmbərlər Uca Allahdan kömək diləyirdisə, habelə, əhli-beyt عليهم السلام də Uca Allahdan kömək diləyirdisə, bəs sən kimdən kömək diləyirsən?

[1] Kuleyninin "əl-Kafi" əsəri, 2/524 (Dua kitabı – "Səhərə və axşama çıxdıqda deyilən sözlər" fəsli)

## Uca Allah Fironu hansı səbəbdən suya qərq etmişdir?

İbn Babaveyh əl-Qummi İbrahim ibn Muhəmmədin belə dediyini rəvayət edir: "Mən Əbu-Həsən Əli ibn Musa Rzaya dedim: "Qüdrətli və Əzəmətli Allah Fironu hansı səbəbə görə dənizə qərq etmişdir? Axı o Allaha iman gətirdi və Onun təkliyini təsdiq etdi?" Əbul-Həsən dedi: "O, əzabı gördükdə, Allaha iman gətirdi, bu isə qəbul olunmur. Bu da, Uca Allahın keçmiş və indiki nəsillər barəsində zikr etdiyi əzəli hökmüdür. Uca Allah buyurur: **"Onlar əzabımızı daddıqda: "Biz tək Allaha iman gətirdik və Ona şərik qoşduqlarımızı inkar etdik!"– dedilər. Lakin o zaman əzabımızı gördükdə iman gətirmələri onlara heç bir fayda vermədi. Bu, Allahın Öz qulları barəsində əzəldən bəri qüvvədə olan qanunudur. Onda kafirlər ziyana uğradılar."**[1] Həmçinin Qüdrətli və Əzəmətli Allah belə buyurur: **"Rəbbinin bəzi əlamətləri gələcəyi gün əvvəlcə iman gətirməmiş və ya imanında bir xeyir qazanmamış kimsəyə iman gətirməsi fayda verməyəcəkdir."**[2] Firon da belə etmişdi. O *dənizdə* batacağını hiss etdikdə dedi: **"Nəhayət *Firon dənizdə* batdığı vaxt dedi: "İsrail oğullarının iman gətirdiklərindən başqa məbud olmadığına inandım. Mən də müsəlmanlardanam!"**[3] Onda ona belə deyildi: **"İndimi? Sən ki əvvəllər asilik etmiş və fəsad törədənlərdən olmuşdun. Bu gün sənin bədənini xilas edəcəyik (sahilə çıxaracağıq) ki, səndən sonra gələnlərə ibrət olasan..."**[4] Qüdrətli və Əzəmətli Allahın Fironu dənizdə qərq etməyinin başqa bir səbəbi də var idi. Belə ki o, dənizdə batacağını hiss etdikdə Allahdan deyil, Musadan imdad dilədi. Elə həmin an Qüdrətli və Əzəmətli Allah Musaya belə vəhy etdi: "Ey Musa! Sən Firona kömək edə bilmədin. Çünki onu sən yaratmamısan. Əgər

---

[1] Gafir surəsi, 84-85
[2] əl-Ənam surəsi, 158
[3] Yunus surəsi, 90
[4] Yunus surəsi, 91-92

o, yalnız Məndən imdad diləsəydi, əlbəttə ki, onun imdadına çatardım."[1]

İmam Rzanın bu kəlamı barədə yaxşı düşün! O, Uca Allahın Fironu dənizə qərd etməsinin və tövbəsini qəbul etməməsinin ikinci səbəbini bəyan edir.

Belə ki, Firon *dənizdə* batacağını gördükdə Uca Allahdan deyil, Musadan عليه السلام imdad diləmişdi. Hərçənd ki, bütlərdən deyil, elçilər arasında möhkəm iradə sahiblərindən sayılan bir peyğəmbərdən imdad dilədi. Amma Uca Allah bunu ondan qəbul etmədi. Əksinə O, Öz peyğəmbəri Musaya عليه السلام belə vəhy etdi: "Ey Musa! Sən Firona kömək edə bilmədin. Çünki onu sən yaratmamısan. Əgər o, yalnız Məndən imdad diləsəydi, əlbəttə ki, onun imdadına çatardım."

Elə isə bu möhtəşəm rəvayətdən sonra peyğəmbərlərdən, imamlardan və əməlisaleh insanlardan imdad diləyənlərin halı necə olacaq!?

[1] "İləl əş-Şəraii" 1/59

# Fatimeyi Zəhradan və imamlardan kömək dilənilir, yoxsa onları Yaradandan?

Bədr döyüşündə köməyə möhtac olduqları zaman, müsəlmanların etdikləri dua barəsində aləmlərin Rəbbi belə xəbər verir: **"O vaxt siz Rəbbinizdən kömək diləyirdiniz. O da: "Mən sizə bir-birinin ardınca gələn min mələklə yardım edəcəyəm"– deyə duanızı qəbul etmişdi."**[1] Halbuki, Peyğəmbər ﷺ sağ idi və onların arasında idi. Həmçinin İmam Əli də *onların arasında idi* və Xanım Fatimə də Mədinədə idi. Lakin bütün bunlarla yanaşı, müsəlmanlar öz dualarını yalnız Allaha yönəltdilər. Çünki, xeyir və zərər verməyə qadir olan yalnız Allahdır. Muhəmməd ﷺ isə yaradılmış bir bəşərdir. O özünə nə bir xeyir, nə də bir zərər verməyə qadir deyil. Elə isə başqasına necə xeyir və ya zərər verə bilər?!

Uca Allah Öz sözünü bütün insanlara – həm müsəlmanlara, həm də kafirlərə yönəldərək hörmətli peyğəmbəri Muhəmməd ﷺ barəsində belə xəbər vermişdir: **"De: "Mən də sizin kimi bir insanam. Mənə vəhy olunur ki, sizin məbudunuz Tək olan İlahdır. Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı işlər görsün və yerinə yetirdiyi ibadətlərində Rəbbinə heç kəsi şərik qoşmasın!"**[2] *Başqa bir yerdə isə Uca Allah* belə buyurur: **"De: "Mən sizə nə ziyan verməyə, nə də *sizi* doğru yola yönəltməyə qadir deyiləm!" De: "Həqiqətən, məni Allahdan heç kəs xilas edə bilməz və mən Ondan başqa bir pənah yeri tapa bilmərəm!"**[3] Demək Peyğəmbər ﷺ Allahı təbliğ edən sadə bir bəşərdir. Onun hörməti və möhtəşəmliyi Allahın onu digər insanlardan üstün tutub peyğəmbər seçməsindən, habelə, hər bir keyfiyyətdə kamil insanı xarakterizə edən əxlağından, davranışından və şəxsiyyətindən irəli gəlirdi. Lakin bütün bu möhtəşəmliklə yanaşı o, (Qurani Kərimin

---

[1] əl-Ənfal surəsi, 9
[2] əl-Kəhf surəsi, 110
[3] əl-Cinn surəsi, 21-22

ayəsinə əsasən) *adi* insanın bacara bildiyi miqdar istisna olmaqla, nə özünə, nə də başqasına xeyir və ya zərər verməyə qadir deyildir. Onda məqam baxımında Allah yanında ondan aşağıda olanlar, habelə həm fəzilət, həm də elm baxımında ondan aşağıda olan imamlar, övliyalar və əməlisaleh insanlar necə?!

Bu Rəsulullahın ﷺ məsəli idi. İndi isə başqa bir məsələ, aləmlərin Rəbbinin ən yaxın dostu İbrahimin məsəlinə diqqət yetir. Allah onun barəsində Qurani Kərimdə belə buyurur: **"İbrahim və onunla birlikdə olanlarda sizin üçün gözəl bir nümunə var. Onlar öz qövmünə dedilər: "Həqiqətən, biz sizdən və sizin Allahdan başqa tapındığınız şeylərdən uzağıq. Biz sizi inkar edirik. Siz bir olan Allaha iman gətirincəyə qədər bizimlə sizin aranızda daim ədavət və nifrət olacaq!" Yalnız İbrahimin öz atasına: "Mən sənin üçün mütləq bağışlanma diləyəcəyəm. Fəqət Allahdan sənə gələn** ***əzabı*** **dəf edə bilmərəm!"– deməsi istisnadır.** ***Onlar dedilər*****: "Ey Rəbbimiz! Biz yalnız Sənə təvəkkül edir və yalnız Sənə üz tuturuq. Dönüş də yalnız Sənədir."**[1]

Allahın izni ilə ölüləri diriltmək, habelə Allahın izni ilə xəlq etmək kimi öz əli ilə böyük möcüzələr törədən möhtəşəm peyğəmbər İsa Məsihin عليه السلام məsəli isə belədir. Nəsranilər onun barəsində iddia edirlər ki, guya Qiyamət günü haqq-hesabı o çəkəcək və bu ona aləmlərin Rəbbi tərəfindən həvalə olunub. Habelə, onlar Allahın "ata" olduğunu demələri ilə İsanın Onun oğlu olduğunu iddia edirlər. Halbuki, Allah bu yaradılmış oğuldan, Məsihdən daha Ucadır. Bu onların əqidələrində də qeyd olunub. Onların bütün bu iddialarına aləmlərin Rəbbi görün necə cavab verir. Uca Allah buyurur: **"Məryəm oğlu Məsih ancaq bir elçidir, ondan əvvəl də elçilər gəlib getmişlər. Onun anası isə** ***Allaha*** **sidq ürəkdən inanan bir qadın idi. Hər ikisi də yemək yeyərdi. Bax gör ayələrimizi onlara necə bəyan edirik, sonra da, gör onlar** ***haqdan*** **necə üz çevirirlər. De: "Allahı qoyub, sizə nə bir zərər,**

---

[1] əl-Mumtəhənə surəsi, 4

**nə də bir fayda verə bilməyən şeylərəmi ibadət edirsiniz?" Allah Eşidəndir, Biləndir."**[1]

*Bu ayədə* Qüdrətli və əzəmətli Allah bəyan edir ki, İsa Məsih yemək yeyən və yeməyə möhtac olan adi bir insandır. Habelə, o, onu Yaradana möhtacdır və əgər yaradanını unutsa, ona bəla üz verər. *Belə olduğu təqdirdə* insanlar hansı vəchlə onların sirlərini və gizli söhbətlərini, habelə, kökslərində gizlətdiklərini Bilən Haqq məbudu unudub, duanı, imdad diləməyi, nəzirləri, qurbanları və ibadətin digər növlərini özünə nə bir xeyir, nə də bir zərər verməyə qadir olmayan birisinə yönəldirlər?! Elə buna görə də Qüdrətli və Əzəmətli Allahın kəlamında belə deyilir: **"Şübhəsiz ki, Allah Məryəm oğlu Məsihdir!"– deyənlər artıq kafir oldular. De: "Əgər Allah Məryəm oğlu Məsihi, onun anasını və yer üzündə olanların hamısını məhv etmək istəsə, kim Ona bir şeylə mane ola bilər?" Göylərin, yerin və onların arasında olanların mülkü Allaha məxsusdur. *Allah* istədiyini yaradır. Allah hər şeyə qadirdir."**[2] Uca Allah bəyan edir ki, İsa Məsihin عليه السلام və onun anasının *Allah yanında olan* dəyərlərinə və məqamlarına baxmayaraq, əgər Qüdrətli və Əzəmətli Allah onların hər ikisini məhv etmək istəsə, Onun qarşısını ala bilən və Onun əmrini dəf edən tapılmaz. Əgər İsa Məsih və onun anası özlərindən zərəri dəf etməyə qadir deyillərsə, onda dualar və ibadətlər hansı haqla onlara yönəlir?!

Peyğəmbərlər, imamlar və əməlisaleh insanlar özlərinə nə xeyir, nə də zərər verməyə qadirdir. Demək, kim duasını onlara yönəldər, yaxud, bəşər övladının qadir olmadığı bir şeydə onlardan imdad diləyər, yaxud da onlar üçün nəzir verər və qurban kəsərsə, artıq o Uca Allaha şərik qoşmuş olar.

*Bu səbəbdən də* Quranın çox gözəl bir şəkildə belə xitab etdiyini görürük: **"Bil ki, Allahdan başqa *ibadətə layiq olan* heç bir məbud yoxdur. Sən həm öz günahlarının, həm də mömin kişilərlə**

[1] əl-Maidə surəsi, 75-76

[2] əl-Maidə surəsi, 17

**mömin qadınların bağışlanmasını dilə."**[1] *Bu ayədə* Qüdrətli və Əzəmətli Allah **"De ki, Allahdan başqa *ibadətə layiq olan* heç bir məbud yoxdur"** – demədi. Çünki, "Lə ilahə illəllah" (Allahdan başqa *ibadətə layiq olan* heç bir məbud yoxdur) kəlməsini dil ilə deməkdən asan bir şey yoxdur. Lakin tələb olunan və əsas məqsəb bu kəlmənin mənasını başa düşmək, onu yaşadığın yerdə tətbiq etmək və mənalarını həyata keçirməkdir.

*Əgər sadəcə dillə demək tələb olunsa idi* elə Məkkə kafirləri "Lə ilahə illləllah" kəlməsini asanlıqla deyərdilər. Lakin onlar başa düşürdülər ki, onlardan tələb olunanlar sadəcə tələffüz etməkdən daha çoxdur. Halbuki, onlar Allahın Xəlq edən, yoxdan Yaradan olmağına iman gətirirdilər. Uca Allah onlar barəsində belə buyurur: **"Əgər onlardan özlərini kimin yaratdığını soruşsan, əlbəttə: "Allah!"– deyərlər. *Gör* necə də *haqdan* döndərilirlər!"**[2] **"Əgər sən onlardan: "Göyləri və yeri kim yaratmışdır?"– deyə soruşsan, onlar mütləq: "Allah!"– deyəcəklər."**[3] Lakin *bununla yanaşı* onlar Qüdrətli və Əzəmətli Allahı, yanlarına yalnız yaxın vasitəçilərin sayəsində daxil olması mümkün olan, həm özlərindən əvvəl, həm də öz zamanlarında yaşayan hökmdarlala müqayisə edirdilər!

Onlar belə deyirdilər: "Qüdrətli və Əzəmətli Allah filan və filan şeylərin tələb olunmasından daha Uca və daha Böyükdür. *Yəni,* Qüdrətli və Əzəmətli Allah Böyük, biz isə günah işlədən bəndələrik. Biz birbaşa Ondan necə istəyə bilərik. Odur ki, bizim üçün şəfaət edən vasitəçilərin olması labüddür. Qüdrətli və Əzəmətli Allah onların bu iddiaları barədə belə xəbər verir: **"Allahı qoyub başqalarını özlərinə dost tutanlar: "Biz, onlara ancaq bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə ibadət edirik"– *deyirlər.*"**[4]

---

[1] Muhəmməd surəsi, 19
[2] əz-Zuxruf surəsi, 87
[3] əz-Zumər surəsi, 38
[4] əz-Zumər surəsi, 3

Yəni, biz ibadəti (duaları, nəzirləri, sədəqələri, qurbanları) onlara, ancaq bizi Allaha yaxınlaşdırsınlar deyə yönəldirik. Biz heç də onların bizi yaratdıqlarını, bizə ruzi verdiklərini və çətin anlarda bizə yardım etdiklərini güman etmirik.

Lakin, *bax gör* Allah onlardan bu cür imanı qəbul etdimi? Duada və ibadətdə Allahdan qeyrisini Allaha şərik qoşa-qoşa, bu tək olan ilahı təsdiq etmələri onlara fayda verdimi?!

Uca Allah həm onlar, həm də onların yolunu gedən digər insanlar barəsində belə demişdir: **"Onların çoxu ancaq şərik qoşaraq Allaha iman gətirir."**[1] Elə buna görə Qüdrətli və Əzəmətli Allah onlar üçün Muhəmmədi ﷺ göndərdi. Onlar isə bu şirki müdafiə edərək Allahın elçisi ilə döyüşdükləri üçün Peyğəmbər ﷺ onların Cəhənnəm əhlindən olmalarına şahidlik etdi. Demək, ibadəti Allahdan qeyrisinə yönəltdiklərinə görə, onların Allahı təsdiqləmələri onlara *heç bir* fayda vermədi.

İnsanlardan heç kəs Allah yanında Rəsulullahın ﷺ qohumlarından artıq deyil ki, onlar üçün istisna hallar olsun, habelə həm əməldə, həm də etiqadda şirk etmələri ilə yanaşı onların şirkdən xali olmaları yazılsın. Dində əsla tərəfgirlik yoxdur. Əbu Ləhəb Peyğəmbərin ﷺ əmisi idi. Amma buna baxmayaraq o Allaha şərik qoşduğuna görə bu qohumluq əlaqəsi ona fayda vermədi.

Habelə, insanlardan heç kəs bu gün Allah yanında Nuhun عليه السلام qövmündən artıq deyil. Belə ki, *Nuhun qovmu* Allaha şərik qoşduqları zaman *Allah* onların hamısını məhv etdi. Onlardan yalnız iman əhli xilas oldu. Onlar da çox az idilər. İsimdə nə qədər İslama mənsub olsalar da, Allahdan qeyrisinə dua edənlərin, Ondan qeyrisindən imdad diləyənlərin çoxluğu əsla həqiqət ola bilməz və *bu çoxluq* əsla şirki tövhid edə bilməz. Nə qədər çoxluqlar vardır ki, onlar zəlalət üzərində olduqlarına görə Qüdrətli və Əzəmətli Allah onları məzəmmət etmişdir. Uca Allah buyurur: **"Həqiqətən, Allah insanlara qarşı lütfkardır, lakin onların çoxu şükür etmir."**[2]

---

[1] Yusuf surəsi, 106

[2] Yunus surəsi, 60

Allah buyurur: **"Lakin onların əksəriyyəti iman gətirmədi."**[1]

Allah buyurur: **"Biz sizə haqqı təqdim etdik, lakin çoxunuz haqqı xoşlamırdı."**[2]

Allah buyurur: **"Onların çoxu ancaq şərik qoşaraq Allaha iman gətirir."**[3]

Bu qəbildən olan ayələr olduqca çoxdur.

İnsanın İslama mənsub olunması onun üçün şərəf və ucalıqdır. Lakin əgər o, Allaha şərik qoşarsa *və Allahdan qeyri* şəriklər qəbul edib çətin və ya xoş hallarda ona dua edərsə, Allah nə onun özünə, nə ibadətinə, nə də iddia etdiyi İslamına möhtac deyildir.

Qüdrətli və Əzəmətli Allah buyurur: **"Küfr etsəniz, *bilin ki,* Allah sizə möhtac deyil."**[4]

Allah buyurur: **"Əgər siz və yer üzündə olanların hamısı kafir olsanız, *Allaha heç bir zərər yetirə bilməzsiniz*. Çünki Allah, həqiqətən də, Zəngindir, Tərifəlayiqdir."**[5]

Heç kəs, yalnız addan yapışıb, mənanı tərk etməməlidir. *Adam* "Lə ilahə illəllah" kəlməsindən yapışır, amma gecə və gündüz bütün hərəkətlərində Allaha şərik qoşaraq bu şəhadət kəlməsinə xələl gətirir və elə güman edir ki, "Lə ilahə illəllah" şəhadətini sadəcə dildə tələffüz etmək onu Cəhənnəm odundan xilas edəcək.

Bir dəfə əlimə "Əksir əd-Dəavat"[6] adlı bir kitab keçdi. Bu kitab sadə camaat arasında çox geniş yayılmış dualar kitabıdır. Bu kitabdakı "Fatimədən عليها السلام imdad diləmək" adlı başlıq mənim nəzərimi cəlb etdi. Müəllif həmin yerdə belə deyirdi: "Təhlükəsiz bir yerdə iki rükət namaz qıl. Salam verdikdən sonra isə üç dətə təkbir gətir və Zəhranı عليها السلام təsbih et. *Sonra da* səcdə et və yüz dəfə **"Ey himayədarım! Ey Fatimə! Mənim imdadıma çat!"** – de. Daha son-

[1] əş-Şuəra surəsi, 8, 67, 103, 121, 139, 158, 174, 190

[2] əz-Zuxruf surəsi, 78

[3] Yusuf surəsi, 106

[4] əz-Zumər surəsi, 7

[5] İbrahim surəsi, 8

[6] "Əksir əd-Dəavat" səh. 410

ra sağ yanağını yerə qoy və yenə o cür de. Sonra yenidən səcdəyə qayıt və yenə o cür de. Sonra da sol yanağını yerə qoy və yenə o cür de. Sonra yenidən səcdəyə qayıt və *bu dəfə həmin duanı* yüz on dəfə de. Sonra da ehtiyacını dilə və Allahın izni ilə *ehtiyacın* ödəniləcək.

Yaşadığımız bu acı fakta kədərlənərək Uca Allahın bu kəlamını xatırladım: **"Allahı qoyub Qiyamət gününədək özünə cavab verə bilməyən əşyalara yalvaran kimsədən daha çox azmış kim ola bilər? Halbuki *o bütlər* onların yalvarışından xəbərsizdirlər. İnsanlar bir yerə toplanacaqları zaman *bütlər* onlara düşmən kəsiləcək və onların ibadətini inkar edəcəklər."**[1]

Elə isə özünə nə ölüm, nə həyat, nə də ruzi verməyə qadir olmadığı halda başqasına da verə bilməyəm bir məxluqdan imdad diləyənlə, darda qalan kimsə yalvardığı zaman ona cavab verib şəri sovuşduran *Allahdan* imdad diləyən arasında fərq qoy!

[1] əl-Əhqaf surəsi, 5-6

# Məgər Allah Öz qulunu qane etmirmi?

Şübhəsiz ki, xoş və sıxıntı anlarda *bütün* məxluqatın üz tutduğu Qüdrətli və Əzəmətli Allah *heç kəsə* Möhtac deyildir... Allahın insanlara verdiyi həqiqi fitrət də budur... Öz dinini *yaxşı* bilən *hər bir* müsəlman buna iman gətirir.

Kuleyni "əl-Kafi" əsərində Davud ibn əl-Qasım əl-Cəfərinin belə dediyini rəvayət etmişdir: "Mən ikinci Əbu Cəfərə belə dedim: "*Canım* sənə fəda olsun! əs-Saməd nə deməkdir?" O dedi: "Aza çox istəməkdən asılı olmayaraq hər kəsin möhtac olduğu hökmdar."[1] Möhtac olduğu: yəni hər kəsin üz tutduğu.

Kuleyni *Əbu Cəfərin* bu sözünə belə izahat verir: "Qüdrətli və Əzəmətli Allah Möhtac olmayan hökmdardır. O Allah ki, insanlar və cinlər daxil olmaqla bütün məxludat ehtiyac zamanı Ona yönəlirlər, çətin anlarında Ona üz tuturlar, sıxıntıları özlərindən dəf etmək üçün Ondan tükənməz xoşbəxtlik və firavanlıq diləyirlər."[2]

İmam Cəfərin əs-Sadiqin də belə dediyini rəvayət etmişdir: "Əgər bir şeydən qorxsan, de: "Allahım, şübhəsiz ki, heç kəs Səndən qoruna bilməz, Sən isə yaratdıqlarından heç kəsdən qorunmağa möhtac deyilsən. Məni filan və filan şeydən qoru..." Başqa bir rəvayətdə isə belə deyir: "Ey, heç bir şeydən qorunmağa möhtac olmayan! Heç kəs səndən qoruna bilməz."[3]

Təkrar-təkrar "Ya Muhəmməd, ya Əli! Ya Əli , ya Muhəmməd! Məni qoruyun! Şübhəsiz ki, məni siz qoruyursunuz. Ya Muhəmməd, ya Əli! Ya Əli , ya Muhəmməd! Mənə zəfər bəxş edin! Şübhəsiz ki, zəfəri mənə siz bəxş edirsiniz. Ya Muhəmməd, ya Əli! Ya Əli , ya Muhəmməd! Məni hifz edin! Şübhəsiz ki, məni siz hifz edirsiniz. Ey hökmdarım! Ey Sahibuz-zaman! İmdad! İmdad! Mə-

---

[1] "əl-Kafi", 1/123 (Tövhid kitabı - əs-Saməd *adının* təfsiri fəsli – 1-ci hədis)

[2] "əl-Kafi", 1/124

[3] "əl-Kafi", 2/404 (Dua kitabı – Müsibət, kədər, sıxıntı və qorxu üçün edilən dua fəsli)

nim köməyimə çat! Mənim köməyimə çat! Mərhəmət! Mərhəmət!"[1] – deyənlərə *demək lazımdır ki, bəs İmam Cəfərin duası* harda qaldı?

Amma Uca Allah onlardan belə soruşacaq: **"Məgər Allah Öz qulunu qane etmirmi?"[2]**

Məgər onların Rəbbinin onlar üçün sığınılacaq və imdad dilənilləcək *bir Rəbb* olması onlara bəs eləmədimi? O Allah ki, Ondan zəfər, sabitlik, qorunmaq və mərhəmət diləyirlər. Habelə, onlara aləmlərin Rəbbi kifayət etmir ki, Ondan qeyrisini Ona şərik qoşurlar?!

Uca Allah buyurur: **"Əgər sən onlardan: "Göyləri və yeri kim yaratmışdır?"– deyə soruşsan, onlar mütləq: "Allah!"– deyəcəklər. De: "Bir deyin görək, əgər Allah mənə bir zərər toxundurmaq istəsə, sizin Allahdan başqa ibadət etdikləriniz Onun zərərini aradan qaldıra bilərlərmi? Ya da O mənə bir mərhəmət göstərmək istəsə, onlar Onun mərhəmətinin qarşısını ala bilərlərmi?" De: "Mənə Allah yetər. Təvəkkül edənlər yalnız Ona təvəkkül edirlər!"[3]**

Şübhəsiz ki, yalnız müsəlman olan şəxs ehtiyaclarının ödənilməsini və kədərinin aradan qalxmasını Tək olan Uca Allahdan diləyərək, çağırışını və duasını Ondan qeyrisinə deyil, məhz Allaha yönəldir. Çünki o bilir ki, yalnız Allahın qadir olduğu şeylərdə *başqasından* yardım və imdad diləmək ibadəti Uca Allahdan qeyrisinə yönəltməkdir.

Mən, əsl fəlakəti nəql edən bir neçə qondarma rəvayətlərə də rast gəldim. Allah bir zərər toxundurmaq istəsə nə özünə, nə də başqasına bir xeyir verməyə qadir olmayan, həyat verməyə və yenidən diriltməyə qüdrəti olmayan bir bəşərə üz tutmaq əsl fəlakətdir.Həmin bu rəvayətlər xeyir və zərər vermək xüsusunda hər bir imam üçün xüsusi bir vəzifə təyin etmişdir. Bu rəvayətlərdə belə

---

[1] Nümunə üçün bax: "Vəsail əş-Şiyə" əsəri, 8/185 – İmamların duası ilə dua etməyin müstəhəb olması fəsli

[2] əz-Zumər surəsi, 36

[3] əz-Zumər surəsi, 38

deyilir: "Əli ibn Hüseyn hökmdarlardan və şeytanların səsindən qurtulmaq üçün *təyin olunub*. Muhəmməd ibn Əli və Cəfər ibn Muhəmməd Axirət və Qüdrətli və əzəmətli Allaha itaət xüsusunda *təyin olunub*. Musa ibn Cəfər vasitəsilə Qüdrətli və Əzəmətli Allahdan afiyət dilə. Əli ibn Musa vasitəsi ilə isə quruda və dənizdə Allahdan əmin-amanlıq dilə. Muhəmməd ibn Əli vasitəsilə də Uca Allahdan ruzi dilə. Əli ibn Muhəmməd nafilə ibadətləri, qardaşlıq əlaqələri və Allaha itaət xüsusunda *təyin olunub*. Həsən ibn Əli Axirət üçün *təyin olunub*. Sahibuz-zamana gəldikdə isə, döyüşün qızğın çağında ondan yardım dilə və o sənə dərhal yardım edəcək."[1] "Bihər əl-Ənvar" əsərinin müəllifi Məclisi bu rəvayətin ardınca həmin kəlmələrə şərh vermək məqsədilə, öncə qeyd etdiyimiz *rəvayətə* oxşar, imamlardan imdad diləməyi özündə əks etdirən dualar zikr etmişdir.[2]

Duaların çoxu məhz bu minvalla davam etmiş və sonda imamlar imdad və ümid yerinə çevrildi. *Ona görə də* onları ziyarət edənlər dualarını onlara yönəldir və imamları aşağıdakı vəsflərlə vəsf edirdilər: (...Ölkənin sütunları, məhkəmənin hakimləri, imanın qapıları... mükafat əta edən, neçə-neçə qaçılmaz *bəlalardan insanı* xilas edən, elə bir şey yoxdur ki, siz ona səbəbkar olmayasınız və ona gedən yol sizdən keçməsin... nicat və sığınacaq yeri və *bəlaları* sovuşduran yalnız sizsiniz, ey Allahın nəzər salan gözləri!)[3]

Bəziləri isə "ya Hüseyn, ya Əli, ya Mehdi, yaxud da ya Abbas" – *deyə onları köməyə* çağırır və ehtiyaclarının ödənilməsi, habelə, qaldıra bilmədikləri ağır yüklərinin qalxması üçün onlardan imdad diləyir.

Görürsən ki, biri təkrar-rəkrar "Ya Əli! İmdad!" – deyir, digəri "Ya Hüseyn! Köməyimə çat!" – *deyərək Hüseyni* çağırır, başqa birisi də, uzun müddət İmam Rzanın məqbərəsinin yanında duraraq,

---

[1] "Bihər əl-Ənvar" 94/33
[2] "Bihər əl-Ənvar" 94/33
[3] "Bihər əl-Ənvar" 94/37

onun qəbrinin başında ağlayır, *əllərini* qəbrə sürtür, qəbri öpür, qəbrdə olana dua edir və onun üçün nəzir verir!

Bir başqası isə, İmam Kazımın ehtiyaclar qapısı olduğunu etiqad edir! Ölməz və *əbədi* Yaşayan Allahı qoyub, duasını imama yönəldir!

Şübhəsiz ki, bu təcrübələr məni öz-özümə belə bir sual verməyə vadar edir: "Necə ola bilər ki, müsəlman *olan şəxs* gündəlik namazlarında on yeddi dəfə Qüdrətli və Əzəmətli Allahın əl-Fatihə surəsindəki "İyyəkə nəbudu və iyyəkə nəstəin" (Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik) kəlməsini təkrar-təkrar desin, sonra isə ehtiyacının ödənilməsi üçün birisini köməyə çağırmaq istədikdə uşaqlıqdan bəri əzbərləyib, dili ilə təkrar-təkrar dediyi həmin ayəyə azacıq da olsa diqqət yetirmədən özü kimi bir məxluqdan kömək diləsin?!"

Adam elə başa düşür ki, **(möcüzələrin təzahürü Əlini çağırsan, sıxıntı anlarında sənin köməyində durduğunu görəcəksən. Hər bir kədər və sıxıntı sənin hökmranlığın sayəsində aradan qalxacaqdır. Ya Əli! Ya Əli! Ya Əli!)[1]** kimi kəlmələri təkrar-təkrar dediyi zaman onun ehtiyacları ödəniləcək. Sonra isə bəndələrin Rəbbi olan Allahı unutmağa çalışaraq bu kəlmələrin ardınca belə deyir: "Ey yardımlar atası! Mənə yardım et! Ya Əli! Köməyimə çat!". Halbuki, Uca Allah Özü haqqında Öz kitabında belə buyurur: ***"Bütlər yaxşıdır,* yoxsa darda qalan kimsə yalvardığı zaman ona cavab verən, şəri sovuşduran və sizi yer üzünün varisləri edən *Allah?!* Heç Allahla yanaşı başqa bir məbudmu var? Siz necə də az düşünürsünüz?"[2]**

Əgər imamlar ehtiyac içində olanların sığınacaq yeri, sıxıntıda olanların pənahgahı, qorxu içində olanların əmin-amanlığı, dua edənlərin qibləsidirsə və yalnız onların adları çəkildiyi zaman dualar qəbul olursa, onda belə bir sual vermək istəyirik: "Məkkə

---

[1] Nümunə üçün bax: Mirzə Nurinin "Mustədrək əl-Vəsail" əsəri, 15/483

[2] ən-Nəml surəsi, 62

müşriklərinin öz bütləri barəsində etdikləri iddiaları ilə bu iddialar arasında nə fərq var!!!"

Bəli, bunlar arasında fərq var. Belə ki, Məkkə müşrikləri *heç olmasa* çətin anlarında dualarını məhz Allaha məxsus edirdilər. **"Onlar gəmiyə mindikləri zaman, dini yalnız Allaha məxsus edərək, Ona yalvarırlar. *Allah* onları xilas edib quruya çıxaran kimi, yenə də *Ona* şərik qoşurlar."**[1]

Amma imamlardan yardım diləyənlər və onların adları vasitəsilə dua edənlər həm xoş anlarında, həm də çətin anlarında Uca Allaha şərik qoşurlar!

[1] əl-Ənkəbut surəsi, 65

## Çağırışlar bizə kifayət edər

Biz açıq-aydın şəkildə deyə bilərik: "Ey insanlar, çağırışlar bizə kifayət edər!"

Nə vaxta qədər əhli-beytin adından danışacağıq? Halbuki, biz onların yaşadıqları tövhidi yaşamırıq. *Qəlblərimizi* məxluqa bağlayırıq, çətin anlarda onlardan imdad diləyirik, onların bizə nemət və ruzi vermələrini istəyirik, bütün çağırışları Eşidən və Ruzi verən Allahdan isə üz döndəririk?!

Nə vaxta qədər Uca Allahı və Onun möhtərəm rəsulunu sevmək barəsində danışacağıq? Halbuki, peyğəmbərlərə və onlardan qeyrilərinə deyil, yalnız Allaha üz tutmağı bizə sövq edən Uca Allahın və Onun möhtərəm rəsulunun kəlamlarına tüklərimizi belə tərpətmirik.

Nə vaxta qədər əhli-beytə tabeçilik barəsində danışacağıq? Halbuki, ölüləri söymək, müsəlmanlar arasında baş verən hadisələri şişirtmək və cahiliyyə çəkişmələrini alovlandırmaqdan başqa heç bir tabeçilik bilmirik.

İnsanların qəlblərində tövhidin əsaslarını möhkəmləndirmək, habelə müsəlman cəmiyyətində əmələ gələn bidət və xurafatlara qarşı mübarizə aparmaq xüsusunda əhli-beytin çəkdiyi zəhmətlər hara, biz hara?

Həqiqətən də, biz düşüncələrimizi düzəltmək və özümüzü hesaba çəkmək üçün bir anlığa dayanıb *dərindən düşünməyə* möhtacıq. Əks halda Uca Allahın, barələrində **"De: "Sizə əməlləri baxımından ən çox ziyana uğrayanlar barəsində xəbər verimmi? O kəslər haqqında ki, onların dünya həyatındakı səyləri boşa çıxmışdır. Çünki onlar özlüyündə yaxşı işlər gördükləri gümanında idilər."[1]** – dediyi insanlardan olarıq.

Son sözümüz budur ki, həmd aləmlərin Rəbbi Allaha məxsusdur.

---

[1] əl-Kəhf surəsi, 103-104

# Məxəzlər

1. İbn Babaveyh əl-Qummi və əl-Mufidin "əl-İtiqadət məa təshih əl-İtiqad" əsəri – İsam Abdusseyyidin təhqiqi – əl-Mufid yayım evi – İkinci nəşr, 1414 h.

2. Muhəmməd Baqir əl-Məclisinin "Biharul Ənvar" əsəri – əl-Vəfa müəssisəsi – Beyrut – Livan – İkinci nəçr, 1403 h. _ 1983 m.

3. Şeyxut-taifə ləqəbli Muhəmməd ibn əl-Hüseyn ət-Tusinin "ət-Tibyan fi Təfsir əl-Quran" əsəri – Əhməd Həbib Qasir əl-Amilinin təhqiqi – Məktəb əl-İləm əl-İslami – Birinci nəşr, 1409 h.

4. əl-Fadl ibn əl-Hüseyn ət-Təbarsinin "Təfsiru Camii əl-Cəvami" əsəri – ən-Nəşr əl-İslami Licəmaati əl-Mudərrisin müəssisəsi – Qum – Birinci nəşr, 1418 h.

5. Saduq ləqəbli İbn Babaveyh əl-Qumminin "ət-Tovhid" əsəri – Seyyid Haşim əl-Huseyni ət-Təhraninin təhqiqi – ən-Nəşr əl-İslami Licəmaati əl-Mudərrisin müəssisəsi – Qum – Birinci nəşr, 1387 h.

6. Saduq ləqəbli İbn Babaveyh əl-Qumminin "əl-Xisal" əsəri – Əli Əkbər Ğifarinin təhqiqi – Hövzada müəllimlər toplumu – Qum

7. İmam Əli ibn Hüseynin "əs-Sahiyfətu əs-Səccadiyyə əl-Kamilə" əsəri – Hövzada müəllimlər toplumu – Qum

8. Seyyid Muhəmməd Baqirin rəhbərliyi ilə Seyyid Mürtəza əl-Muvahhid əl-Əbtahi əl-İsfahaninin üzərə çıxartdığı "əs-Sahiyfətu əs-Səccadiyyə" əsəri – İmam Mehdi müəssisəsinin təhqiqi – Birinci nəşr, 1411 h.

9. Saduq ləqəbli İbn Babaveyh əl-Qumminin "İləl əş-Şərai" əsəri – Heydəriyyə kitabxanasının nəşri, 1385 h. _ 1966 m.

10. Əbul Abbas Abdullah əl-Himyərinin "Qurb əl-İsnad" əsəri – İrsin dirçəlişi üçün Əhli-beyt müəssisəsi – Qum – Birinci nəşr, 1413 h.

11. Kuleyninin "əl-Kafi" əsəri – Əli Əkbər Ğifarinin təhqiqi - əl-Kutubu əl-İslamiyyə yanım evinin nəşri – Dördüncü nəşr, 1365 h.

12. Şeyx əl-Mufidin "əl-Məsail əs-Sərviyə" əsəri – Şeyx Mufidin minilliyi üçün Beynəlxalq konfrans

13. ən-Nuri ət-Təbarsinin təhqiqi ilə "Mustədrək əl-Vəsail" əsəri – İrsin dirçəlişi üçün Əhli-beyt müəssisəsi – Birinci nəşr, 1408 h.

14. İmam Əlinin "Nəhcul Bəlağə" əsəri – Muhəmməd Abdənin təhqiqi – əl-Marifə yayım evi – Beyrut

15. əl-Hurr əl-Amilinin "Vəsail əş-Şiyə" əsəri – İrsin dirçəlişi üçün Əhli-beyt müəssisəsinin təhqiqi və nəşri – İkinci nəşr – Qum

# İmam Əli Rza öz duasında belə deyərdi:

“Allahım, güc və qüvvətdən sənə çığınıram. Çünki, güc və qüvvət yalnız Sənə məxsusdur.

Allahım, haqqımız çatmadığı bir şeyi bizim barəmizdə iddia edənlərdən Sənə sığınıram! Allahım, özümüz öz barəmizdə demədiyimiz bir şeyi bizim barəmizdə deyilənlərdən Sənə sığınıram! Allahım, yaratmaq Sənə məxsusdur, işləri yoluna qoymaq Sənə aiddir. Biz yalnız Sənə ibadət edir və yalnız Səndən yardım diləyirik. Allahım, Sən həm bizim Xaliqimizsən, həm də əvvəlki və sonrakı atalarımızın Xaliqisən. Allahım, Rübubiyyət yalnız Sənə layiqdir, Uluhiyyət də yalnız Sənin üçündür.

Allahım, Biz Sənin qullarınıq, qullarının övladlarıyıq. Biz özümüzə nə bir zərər, nə də bir xeyir verməyə, habelə nə öldürməyə, nə həyat verməyə, nə də yenidən diriltməyə qadirik. Allahım, bizim tanrı olduğumuzu iddia edənlərdən Sənə sığınırıq. Habelə, kim iddia etsə ki, yaratmaq və ruzi vermək bizə aiddir, İsa peyğəmbərin عليه السلام nəsranilərdən uzaq olduğu kimi biz də onlardan uzağıq. Allahım, onları iddia etdiklərinə biz dəvət etməmişik. Odur ki, onların dediklərinə görə bizi cəzalandırma və onların iddialarına görə də bizi bağışla.”

هاتف : ٢٢٥٦٠٢٠٣ - ٢٢٥٥٢٣٤٠ - فاكس : ٢٢٥٦٠٣٤٦
ضاحية عبدالله السالم قطعة (١) شارع أحمد الهندي منزل (٢١)
www.almabarrah.net - Email; almabarrh@gmail.com
almabarrah @almabarrah almabarrah